# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

26 iyun 2026-cı il, cümə
№ 110 (7177)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Güclü Ordu, təhlükəsiz Vətən



Bax səh. 2

## Qərbi azərbaycanlıların qayıdış hüququ bərpa edilməlidir

Bax səh. 5



Bax səh. 4

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Vatikan Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri ilə görüşüb



## YAP nümayəndə heyəti Çində səfərdədir

Bax səh. 3

## “Azərbaycançılıq məfkurəsi və milli dəyərlər sisteminin inkişafı”

Bax səh. 3

## 35 il bir yerdə

Bax səh. 4

## Qərbi Azərbaycanlıların qayıdış hüququ...

Bax səh. 5

## Müasir çağırışlara əsaslanan təhsil islahatları

Bax səh. 6

## Uşaqlar - Güclü dövlətin və sağlam cəmiyyətin təməlidir

Bax səh. 7




## Ankara sammiti öncəsi gərginlik artır

Bax səh. 7

# Prezident hərbi qulluqçuları təltif etdi



Prezident İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına “general-mayor” ali hərbi rütbəsinin verilməsi haqqında” Sərəncama əsasən, Müdafiə Nazirliyinin hərbi qulluqçuları - polkovnik Rəsul Rasim oğlu Əliyevə, polkovnik Elçin Rəhim oğlu Abdullayevə, polkovnik Azər Əfrayıl oğlu Heybətliyə, polkovnik Gülməmməd Tofiq oğlu Rzayevə və polkovnik Ruslan Dünyaməddin oğlu Ağasiyevə “general-mayor” ali hərbi rütbəsi verilib.

Dövlət başçısının “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında” Sərəncamı ilə Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə, bir neçə hərbi qulluqçu 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, “Vətən uğrunda” və “Hərbi xidmətlərə görə” medalları ilə təltif ediliblər.

# Şəhid hərbçilər də təltif olunub

Prezidentin imzaladığı “Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında” Sərəncama əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçuları və mülki işçiləri ölümündən sonra “Azərbaycan Bayrağı”, 3-cü dərəcəli “Rəşadət” və 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordenləri ilə təltif olunublar.

# Özbəkistandakı səfirimiz vəzifəsindən geri çağırılıb

Prezident İlham Əliyev Hüseyn Rzaqulu oğlu Quliyev Azərbaycan Respublikasının Özbəkistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Sərəncam imzalayıb.

# “İntellektual gömrük” informasiya sistemi yaradılıb

Prezident İlham Əliyevin müvafiq Fərmana əsasən, “İntellektual gömrük” informasiya sistemi haqqında Əsasnamə təsdiq edilib. Həmin sənədlə “İntellektual gömrük” İnformasiya Sistemi (İGİS) yaradılıb. Fərmanla müəyyən edilib ki, Dövlət Gömrük Komitəsi İGİS-in formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görməli, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Hökumət buludu” (G-cloud) Konsepsiyası”na uyğun olaraq, İGİS-in “Hökumət buludu”nda yerləşdirilməsini, aparılmasını və təkmilləşdirilməsini təmin etməlidir.

# İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov arasında telefon danışığı olub



İyunun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov arasında telefon danışığı olub. Telefon danışığı zamanı mədəniyyət, elm, təhsil və idman kimi sahələrdə ənənəvi olaraq məhsuldar əməkdaşlıq münasibətlərinin əhəmiyyəti vurğulanıb. Həmçinin ikitərəfli münasibətlərin prioritet istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

# Hərbi qulluqçular “şəxsi jeton”la təmin ediləcək

Prezident İlham Əliyev “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” qanunlarda dəyişiklikləri təsdiqləyib. Sənədə əsasən, hərbi qulluqçular hərbi xidmət keçdikləri dövlət orqanları, onların strukturuna daxil olan qurumlar tərəfindən şəxsi jetonla təmin ediləcəklər. Buna görə də qanunvericiliyə “şəxsi jeton” anlayışı və istifadə qaydaları əlavə edilib. Bundan başqa, “Hərbi vəzifə və hərbi xidmət haqqında” qanuna çağırışaqədərki hazırlıq sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsi məqsədilə əlavə olunmuş yeni maddəyə əsasən, gənclərin çağırışaqədərki hazırlığının təşkili və həyata keçirilməsi ilə bağlı əsasnamənin Nazirlər Kabineti tərəfindən müəyyən edilməsi nəzərdə tutulur.

Dövlət başçısının imzaladığı Fərmanla Nazirlər Kabineti iki ay müddətində “Hərbi vəzifə və hərbi xidmət haqqında” qanuna uyğun olaraq, gənclərin çağırışaqədərki hazırlığı haqqında əsasnaməni, altı ay müddətində isə hərbi qulluqçuların şəxsi jetonla təmin edilməsi, həmçinin şəxsi jetonun təsviri, xüsusiyyətləri və uçotunun aparılması qaydasını müəyyən edərək Azərbaycan Prezidentinə məlumat verməlidir.



# Güclü Ordu, təhlükəsiz Vətən



Tarixdən bəllidir ki, ordular hər zaman xalqların, dövlətlərin taleyində mühüm rol oynayıb. Bugünkü reallıqlar, dünyada güc amilinin beynəlxalq prinsipləri üstələdiyi bir dönəmdə isə güclü orduya sahiblənməyin aktullığı heç vaxt olmadığı qədər artıb. Bunu Azərbaycan da öz taleyində yaşayıb. Məhz Silahlı Qüvvələrimizin zəif olması səbəbindən ötən əsrin doxsanıncı illərinin əvvəllərində torpaqlarımız işğal altına düşüb və xalqımız böyük faciələrə düçar olub.

Tarixi ədalətsizliyə 30 ildən sonra son qoyuldu. 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında qazanılan qələbələr son 200 illik tariximizin ən böyük zəfərləridir. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması ilə nəticələnən və tariximizdə əbədi qalacaq, hər zaman qürur mənbəyimiz olacaq bu qələbələr başda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev olmaqla Silahlı Qüvvələrimizin gücü, misilsiz şücaəti sayəsində qazanılıb.

Bu gün respublikamızda əlmətdar bir gündür. Prezident Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olunub və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

Güclü Ordu - güclü Vətən deməkdir. Güclü Ordu - əmin amanlıq, quruculuq, sabaha möhkəm inam deməkdir. “Biz müstəqil dövlətik. Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir”, - deyə Ulu Öndər vurğulayırdı.

**Silahlı Qüvvələrimizin inkişaf tarixi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır**

Azərbaycan Silahlı Qüvvələri bugünkü yüksək səviyyəyə çatanadək, qalib Orduya çevrilənədək bir sıra mərhələlərdən keçib. Ulu öndər Heydər Əliyevin 1969-cu ildə respublikamızda hakimiyyətə gəlişindən sonra Onun müstəsna xidmətləri sayəsində respublikamızda milli hərbi kadrların hazırlanması prosesinə başlanıb. Məhz buna görə də deyə bilərik ki, Silahlı Qüvvələrimizin inkişaf tarixi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Zamanında Heydər Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində aparılan işlər ölkəmizdə mütəşəkkil, qüdrətli Silahlı Qüvvələr yaratmağa imkan verdi, onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaratdı. Ulu Öndərin 1971-ci ildə böyük səylər hesabına Azərbaycanda hərbi kadrlar hazırlayan məktəbin - görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi liseyin yaradılması böyük nailiyyət idi. Sözügedən məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrların hazırlanmasına gətirib çıxartdı. Eləcə də Heydər Əliyevin sayəsində azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində, həmçinin keçmiş SSRİ-nin digər hərbi məktəblərinə təhsil almaları, hərb sənətinin sirlərinə yiyələnmələri mümkün oldu.

Ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyin ilk illərində Azərbaycana rəhbərlik edənlər Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasətinə başladığı bir vaxtda ordu quruculuğu kimi vacib və məsuliyyətli işin öhdəsindən gələ bilmədilər. Həmin dövrdə nizami ordudan əsər-əlamət yox idi. Müxtəlif hərbi dəstələr ayrı-ayrı qüvvələr tərəfindən idarə olunurdu. Bundan istifadə edən düşmənin torpaqlarımıza təcavüzü getdikcə daha geniş miqyas alırdı. Belə bir ağır vaxtda xalqın çağırışı ilə hakimiyyətə qayıdan Heydər Əliyev başıpozuq silahlı dəstələri ləğv edərək nizami ordu quruculuğu prosesinə start verdi. 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin formalaşması daha da sürətləndi. Həyata keçirilən uğurlu siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına və döyüş ruhunun yüksəldilməsinə xüsusi diqqət ayrıldı.

Ulu öndər Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında Fərman imzaladı. Akademiyanın təsis olunması hərb sahəsində milli kadr ehtiyatının formalaşması prosesinin keyfiyyət etibarı ilə yeni inkişaf mərhələsi sayıla bilər. Prezident Heydər Əliyevin 2001-ci il 20 avqust tarixli Fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər müvafiq olaraq Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı.

Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı illərin ortalarından başlayaraq Azərbaycanın NATO ilə sıx və səmərəli əməkdaşlığı ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə, Silahlı Qüvvələrimizin modernləşdirilməsinə, müasir standartlara uyğunlaşdırılmasına səbəb oldu. Ulu Öndərin səyləri nəticəsində 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun “Sülh naminə tərəfdaşlıq” proqramına, bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə “Planlaşdırma və analiz prosesi” proqramına, 2001-ci ildə isə “Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı”na qoşuldu. İl ərzində 2 mindən çox Azərbaycan hərbçisi NATO proqramlarında və digər ikitərəfli əməkdaşlıq proqramlarında iştirak edərək ən son hərbi yenilikləri mənimsədilər. Beynəlxalq sülhməramlı qüvvələrin tərkibində Kosovoda, Əfqanıstanda və İraqda zəngin təcrübə qazanan və öz standartlarını NATO standartlarına uyğunlaşdıran Azərbaycan Ordusu modern orduya çevrildi.

**İstənilən vəzifəni icra etməyə qadir olan Ordunun yaradılması Azərbaycanın böyük uğurudur**

Azərbaycan müstəqilliyinin ilk illərindən Ermənistanın işğalçılıq siyasəti ilə üzləşib və torpaq itkilərinə məruz qalıb. Məhz bu amil də respublikamızda ordu quruculuğuna müstəsna diqqət göstərilməsini şərtləndirib. Ölkəmiz özünün ərazi bütövlüyünün pozulması faktı ilə heç vaxt barışmayıb. Prezident İlham Əliyev müxtəlif yerli və xarici auditoriyalarda çıxışları zamanı birmənalı şəkildə bildirirdi ki, sülh danışıqları nəticə verməyəcəyi təqdirdə, Azərbaycan özünün ərazi bütövlüyünü güclü ordusu vasitəsilə təmin edəcək. Azərbaycan Prezidenti praqmatik, sözü və imzası eyni çəkiyə malik olan nüfuzlu siyasətçidir. Dövlət başçımız ölkənin ərazi bütövlüyü məsələsində Silahlı Qüvvələrimizə güvəndiyini diqqətə çatdırar-



kən reallıqdan çıxış edirdi. Çünki müstəqillik dövründə ordunun davamlı şəkildə möhkəmləndirilməsi daim Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edib. Ulu öndər Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyev ölkənin artan imkanlarından istifadə etməklə ordu quruculuğuna müstəsna diqqət göstərib. Ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq güclü, qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirməyə qadir olan ordunun yaradılması ilə bağlı davamlı şəkildə həyata keçirilən tədbirlər kompleks xarakter daşıyıb. Dövlət büdcəsindən Silahlı Qüvvələrin möhkəmləndirilməsinə lazımi qədər vəsait yönəldilib. Bütövlükdə, davamlı dövlət qayğısı sayəsində Azərbaycan Ordusunun maddi-texniki təchizatını yüksək səviyyəyə çatdırmaq mümkün olub. Məhz Prezident İlham Əliyevin davamlı diqqət və qayğısı sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrilib. Təsadüfi deyil ki, nüfuzlu “GlobalFirePower” mərkəzinin 55 göstərici əsasında hazırladığı hesabatda Azərbaycan Ordusu Cənubi Qafqazda birinci, dünyada ilk əlli ordu sırasında yer alıb.

Vətən müharibəsi göstərdi ki, Azərbaycan ötən dövrdə ordu quruculuğunda müasir yanaşmalara və innovativ texnikalardan istifadə olunmasına üstünlük verib. Uzun müddət havadaqalma qabiliyyətinə malik və müasir peyk-naviqasiya sistemi ilə təchiz olunan “HERON”, ortaölçülü çoxməqsədli “HERMES 900”, “HERMES 450”, “HAROP”, “Bayraktar” pilotsuz uçuş aparatları Vətən müharibəsində düşmənin ölüm kabusuna çevrilmişdi.

İkinci Qarabağ müharibəsindən əvvəlki dövrdə respublikamızda aparılan müasir ordu quruculuğu siyasətinin mühüm bir istiqamətini isə şəxsi heyətin peşəkarlığının artırılması, kadrların yetişdirilməsi, həmçinin əsgər və zabitlərin sosial təminatlarının gücləndirilməsi təşkil edib. Vətən qarşısında borcunu yüksək səviyyədə yerinə yetirən çoxlu sayda hərbçi mənzillərlə təmin edilib. Paralel şəkildə orduda xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər görülür. Yeri gəlmişkən, Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrimizin hərbi qulluqçuları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunublar.

Qısa müstəqillik tarixində Azərbaycanın yerli müdafiə təyinatlı sənaye quruculuğuna nail olması, təxminən 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsalını mənimsəməsi də son dərəcə qürurverici haldır. Hazırda ölkəmizdə hərbi-sənaye kompleksinə aid “İqlim”, “Avia-Aqreqat”, “Sənayecihaz”, “Dalğa” elm-istehsalat birlikləri, “Elektron Hesablayıcı Maşınlar”, “Gəncə maşınqayırma”, “Elektromexanika”, “Radioquraşdırma”, “Telemexanika”, “Cihazqayırma”, “Azon”, “Araz”, “Peyk”, “Üfüq”, “Dalğa” kimi müəssisələr uğurla fəaliyyət göstərir.

**Bakıda şanlı Zəfərimizi simvolizə edən möhtəşəm parad**

Ötən il Azərbaycanın şanlı Zəfərinin beşinci ildönümü ilə əlaqədar noyabrın 8-də Bakının Azadlıq meydanında möhtəşəm parad keçirildi. Parad təkcə Qələbənin rəmzi deyildi, həm də yeni bir reallığın nümayişi idi. Parad Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə baş tutdu. Azadlıq meydanından keçid edən, üzərində 12,7 millimetrlik NSV pulemyotları, tankəleyhinə idarəolunan “SPIKE-ER”, 120 millimetrlik “SPEAR” minaatanlar quraşdırılan “SandCat-Stormer” zirehli idarəetmə, çevik hərəkət avtomobilləri, silahlanmaya yeni qəbul edilmiş Milli Müdafiə Sənayesinin məhsulu “VAŞAQ” xüsusi əməliyyat nəqliyyat vasitələri, “COBRA-II” zirehli tibbi təxliyə avtomobilləri, “SKİF” raket kompleksi, “BTR-82A” zirehli transportyorları, “PDM-3” Piyadaların Döyüş Maşınları, “T-72M1” və “T-90S” tankları Azərbaycan Ordusunun hərbi qüdrətini nümayiş etdirdi.

Tribuna önündən “S-125 TM”, “BUK-MB”, “BUK-MB2K”, “İLDIRIM-8”, “S-300 FAVORİT” və “TOR-2M” zenit-raket komplekslərinin keçidi oldu. Paradda silahlanmaya yeni qəbul edilmiş yerli Müdafiə Sənayesinin məhsulu “VİKİNQ” hava hədəflərinə qarşı çoxfunksiyalı mobil döyüş kompleksi, təkmilləşdirilmiş “Şilka” özüyeriyən zenit qurğusu və “HQ-9” uzaqmənzilli zenit-raket kompleksi nümayiş olundu. Həmçinin İnsansız Sistem Qoşunları tərəfindən Ordumuzun pilotsuz uçuş aparatları




və digər insansız vasitələri təqdim edildi. Bir sözlə, hərbi paradda ordu birləşmələrinin nümunəvi keçidləri, nümayiş olunan hərbi texnika qalib Azərbaycanın İkinci Qarabağ müharibəsindən sonrakı beş ildə keyfiyyətcə yeni bir ordu formalaşdırdığını əyani şəkildə təsdiqlədi. Parada ordumuzun silahlanmasına cəlb olunan yeni texnikanın məlum səbəblərə görə yalnız bir hissəsinin nümayiş etdirildiyini bildirən Prezident İlham Əliyev vurğulayıb: “İstənilən halda biz potensialımızı xeyli gücləndirmişik. Əgər Azərbaycan Ordusunu bu gün və Vətən müharibəsində qalib gəldiyimiz həmin vaxtın silahları və döyüş qabiliyyəti ilə müqayisə etsək, hazırda biz bir neçə dəfə güclüyük. Zənnimcə, bu, vəziyyəti qiymətləndirmək üçün kifayətdir. Neçə dəfə olduğunu deməyəcəyəm, amma bir neçə dəfə. Əlbəttə ki, bu, bizə öz gücümüzə inanmağa əsas verir”.

**Ordu quruculuğu davam edir**

Qalib Azərbaycan postmüharibə dövründə sırf sülh təşəbbüslərindən çıxış edir. Məhz Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində Azərbaycanla Ermənistan arasında tənzimləmə prosesi Vaşinqtonda yekun sülh sazişinin paraflanmasınadək irəliləyib.

Bununla belə, sülh gündəliyinin müəllifi olan Azərbaycan müharibə bitsə də. Ordu quruculuöunu davam etdirir. Bu o məqsədlə edilir ki, Vətənimiz bir daha təcavüzə məruz qalmasın, xalqımız təhlükəsizlik şəraitində yaşasın.

Postmüharibə dövründə Ordumuzun gücləndirilməsi müxtəlif istiqamətlərdə həyata keçirilir. Silahlı Qüvvələrimiz İkinci Qarabağ müharibəsində XXI əsrin müharibəsini apardı. Döyüşlərdə yeni yanaşmaların, innovasiyaların tətbiqi və əlbəttə ki, şəxsi heyətin yüksək vətənpərvərliyi böyük Qələbəni təmin etdi. Azərbaycan postmüharibə dövründə ordu quruculuğunu İkinci Qarabağ müharibəsinin təcrübəsini nəzərə almaqla həyata keçirir. Silahlı Qüvvələrin müasir tələblərə cavab verən silah-sursatla təminatı yenə də əsas vəzifələrdən biridir.

Azərbaycanın müdafiə potensialının gücləndirilməsində digər mühüm istiqamət struktur islahatlarını əhatə edir. Burada ilk növbədə NATO daxilində ikinci ən güclü orduya sahib olan Türkiyənin təcrübəsinə istinad edilir. Məsələn, postmüharibə dövründə bir sıra yeni silahlı birləşmələr, o cümlədən komando birlikləri yaradılıb və proses davam edir. Komando birlikləri istənilən hərbi vəzifəni icra etməyə qadirdir, çevikliyi ilə fərqlənir.

*Mübariz ABDULLAYEV*

# YAP nümayəndə heyəti Çində səfərdədir











Çin Kommunist Partiyasının (ÇKP) dəvəti ilə Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti Çin Xalq Respublikasına səfər edib. Nümayəndə heyəti ÇKP Şanxay Partiya Məktəbində seminarların açılış mərasimində iştirak edib. Tədbirdə çıxış edən ÇKP Şanxay Partiya Məktəbinin direktorunun müavini Syun Yun Azərbaycan ilə Çin arasında çoxşaxəli əlaqələrin dinamik inkişafı çərçivəsində partiyalararası əməkdaşlığın əhəmiyyətini vurğulayıb. O, seminarların partiya quruculuğu, kadr hazırlığı, səmərəli idarəetmə kimi sahələrdə fikir və təcrübə mübadiləsi baxımından faydalı olacağına əminliyini ifadə edib.

Tədbirdə çıxış edən YAP nümayəndə heyətinin rəhbəri, partiyanın Təftiş Komissiyasının üzvü, Milli Məclisin Gənclər və idman komitəsinin üzvü Vüqar İskəndərov Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin müdrik siyasəti sayəsində iki ölkə arasındakı münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini qeyd edib. Onun sözlərinə görə, bu prosesdə partiyalararası əlaqələr xüsusi rol oynayır: “Hakim partiyalar - YAP ilə ÇKP arasında qarşılıqlı əlaqələr siyasi dialoqun hərəkətverici qüvvəsidir”.

Çinin modernləşmə və effektiv idarəetmə sahəsindəki təcrübəsinin bütün dünyada maraqla izlənildiyini deyən V.İskəndərov səfərin ikitərəfli münasibətlərin inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Nümayəndə heyəti “Ənənəvi Çin mədəniyyəti və “Bir kəmər, bir yol” təşəbbüsü: bəşəriyyətin ortaq taleyinin qurulması yolları” və “Pudun rayonunun inkişafı və dünyaya açılması” mövzularında seminarlarda iştirak edib. Həmçinin nümayəndə heyətinin Şanxay şəhərində yerləşən ÇKP-nin 1-ci qurultayının ev muzeyinə ziyarəti təşkil olunub.

# “Azərbaycançılıq məfkurəsi və milli dəyərlər sisteminin inkişafı”







Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və partiyanın İsmayıllı rayon təşkilatının birgə təşkilatçılığı ilə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində İsmayıllı rayonu ərazisində yerləşən “Qaya” istirahət mərkəzində keçirilən “Heydər Əliyev məktəbi” layihəsinin üçüncü günündə gənc fəallarla “Azərbaycançılıq məfkurəsi və milli dəyərlər sisteminin inkişafı” mövzusunda görüş keçirilib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.





Görüşdə çıxış edən YAP İdarə Heyətinin üzvləri, Milli Məclisin deputatları Hikmət Babaoğlu və Elnarə Akimova, YAP Veteranlar Şurasının üzvü, “Modern İnkişaf və Ailə” İctimai Birliyinin sədri Zərifə Quliyeva “Heydər Əliyev Məktəbi” layihəsinin əhəmiyyətindən bəhs ediblər. Bildirilib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası kimi formalaşdırılan azərbaycançılıq məfkurəsi dünya azərbaycanlılarını vahid ideya ətrafında birləşdirən, milli kimliyimizi qoruyan və dövlətimizin ideoloji dayaqlarını möhkəmləndirən sarsılmaz təməldir. Vurğulanıb ki, bu məfkurə ölkəmizdə multikulturalizm və tolerantlıq ənənələrinin inkişafına xidmət etməklə yanaşı, dövlət suverenliyimizin də etibarlı ideoloji təminatına çevrilib.

Qeyd olunub ki, müasir qloballaşma dövründə milli-mənəvi dəyərlərin, ailə institutunun, dilimizin və mədəniyyətimizin qorunub saxlanılması gəncliyimizin ən ümdə vəzifələrindən biridir. Ümummilli Liderin formalaşdırdığı və bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilən dövlət siyasəti məhz milli köklərə bağlı, eyni zamanda müasir dünyagörüşünə sahib intellektual nəslin yetişdirilməsinə xidmət edir.

Tədbirdə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfərdən və ölkəmizin ərazi bütövlüyünün tam bərpasından ətraflı bəhs edilib. Vurğulanıb ki, bu möhtəşəm nailiyyət azərbaycançılıq məfkurəsi ruhunda yetişən gənclərin fədakarlığı, xalqımızın sarsılmaz milli birliyi və vətənə bağlılığı sayəsində mümkün olub.

Qeyd edilib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun əldə etdiyi şanlı Qələbə təkcə hərbi gücün deyil, həm də uzun illər ərzində formalaşmış milli-mənəvi dəyərlərin, vətənpərvərlik tərbiyəsinin və xalq-ordu birliyinin təntənəsidir.

Vurğulanıb ki, qazanılmış tarixi Zəfərin qorunması, onun gələcək nəsillərə ötürülməsi, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərində və “Böyük Qayıdış” proqramında fəal iştirak etmək YAP gənclərinin mühüm vətəndaşlıq missiyasıdır. Partiya fəalları informasiya məkanında, elmi-intellektual platformalarda milli maraqların müdafiəsi istiqamətində daha fəal olmalı, azərbaycançılıq məfkurəsinin rəqəmsal mühitdə təbliğinə öz töhfələrini verməlidirlər.

Müzakirələr zamanı layihə iştirakçıları Ayşən Quliyeva, Pəri İbrahimova, Nicat Bayramov, Maysaray Səfərova, Turqay Daşdəmirli və digər gənclər mövzu ilə bağlı fikir və təkliflərini bölüşüblər.

Panel müzakirələrinin ardından yay məktəbinin proqramına uyğun olaraq gənclərin praktiki bacarıqlarının, komanda işinin və strateji düşüncə qabiliyyətlərinin inkişafına yönəlmiş fəaliyyətlər təşkil olunub.

İlk olaraq iştirakçılar arasında “Mənim xəyalımdakı ağıllı kənd” mövzusunda Yaradıcılıq Atelyesi (Workshop) müsabiqəsi keçirilib. “Şəhərsalma və Memarlıq İli”nin ruhuna uyğun təşkil olunan müsabiqədə gənclər komandalar şəklində birləşərək işğaldan azad edilmiş ərazilərdə tətbiq oluna biləcək innovativ, ekoloji cəhətdən dayanıqlı və texnoloji əsaslı kənd modelləri hazırlayıblar. İştirakçılar öz memarlıq və urbanizasiya baxışlarını təqdim edərək hazırladıqları layihələri nümayiş etdiriblər.

Daha sonra proqram çərçivəsində gənclərin analitik təfəkkürünü və beynəlxalq münasibətlər sahəsində biliklərini inkişaf etdirməyə yönəlmiş “Diplomatik Danışıqlar” simulyasiya oyunu keçirilib. Simulyasiya zamanı iştirakçılar müxtəlif dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri qismində çıxış edərək siyasi, iqtisadi və ekoloji xarakterli böhran situasiyalarının həlli yollarını müzakirə ediblər.

Təqdimatlardan sonra yay məktəbinin iştirakçıları üçün Azərbaycanın qədim tarix və mədəniyyət mərkəzlərindən biri olan Basqal qəsəbəsinə ekskursiya təşkil edilib. Azərbaycanın qədim ipəkçilik və kəlağayıçılıq ənənələrinin yaşadıldığı Basqal ilə tanışlıq gənclər tərəfindən böyük maraqla qarşılanıb.

Günün sonunda YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradov və YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov gənclərlə görüşərək fikir mübadiləsi aparıblar.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Vatikan Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri ilə görüşüb





Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkəmizdə səfərdə olan Vatikan Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Monsenyor Covanni Çezare Paqatzinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüş zamanı Heydər Əliyev Fondu ilə Vatikan arasında mövcud əməkdaşlıq sahələri, o cümlədən gələcək fəaliyyət istiqamətləri müzakirə olunub.

Qeyd edək ki, Heydər Əliyev Fondu ilə Vatikan Apostol Kitabxanası və Apostol Arxivi arasında əməkdaşlıq 2012-ci ildən etibarən həyata keçirilir.

Görüşdə Heydər Əliyev Fondu ilə Vatikan Apostol Kitabxanası və Apostol Arxivi arasında mövcud əməkdaşlığın inkişaf perspektivləri, gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan layihələr və təşəbbüslər, həmçinin Vatikan arxivindəki fondların rəqəmsal mühafizəsi sahəsində birgə layihələrin həyata keçirilməsi müzakirə olunub. Vatikan Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Monsenyor Covanni Çezare Paqatzi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ötən il Müqəddəs Taxt-Taca səfəri çərçivəsində Vatikan Apostol Kitabxanası və Apostol Arxivini ziyarət etdiyini xatırladaraq, ötən illər ərzində Azərbaycan və Vatikan arasında, eləcə də Heydər Əliyev Fondu ilə geniş əməkdaşlığın qurulduğunu bildirib.




Qonaq Azərbaycana səfəri zamanı bir sıra qurumlarda görüşlər keçirildiyini, müzakirələr zamanı Vatikan kolleksiyalarında Azərbaycanla bağlı qorunan nadir əlyazmaların müəyyənləşdirilməsi, təhlili, tərcüməsi və rəqəmsallaşdırılması məsələlərinin diqqət mərkəzində olduğunu deyib.

Bildirilib ki, Heydər Əliyev Fondu ilə Vatikan Apostol Kitabxanası və Apostol Arxivi ilə əməkdaşlıq çərçivəsində əlyazmaların bərpa edilməsi və onların rəqəmsallaşdırılmasına dair mövcud müqavilə üzrə Azərbaycanın tarixi və mədəni irsi, eləcə də türkdilli xalqların irsi ilə bağlı əhəmiyyətli əlyazmaların bərpası və rəqəmsallaşdırılması həyata keçirilib.

Ötən il Heydər Əliyev Fondu, Azərbaycan Milli Elmlər Akademiyası və Vatikan Apostol Kitabxanası və Apostol Arxivi arasında imzalanan anlaşma memorandumuna uyğun olaraq 2026-cı ildə azərbaycanlı alimlərdən ibarət nümayəndə heyətinin Vatikanda tədqiqatlar aparması nəzərdə tutulur. Tədqiqatlar Cənubi Qafqaz və Azərbaycan tarixi, eləcə də Ağqoyunlu və Səfəvi hökmdarlarının Roma papaları ilə diplomatik əlaqələrinə dair materialları əhatə edəcək.Eyni zamanda, gələcəkdə azərbaycanlı tələbələrin Vatikanda kitabxanaçılıq və arxiv sahələri üzrə təhsil alma imkanları da müzakirə olunub.

Görüş zamanı Vatikan nümayəndə heyətinə Azərbaycan xalçası hədiyyə olunub. Qonaqlar isə Vatikan arxivində XX əsrin əvvəlində Azərbaycan tarixinə aid saxlanılan sənədin surətini hədiyyə ediblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Vatikan Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Monsenyor Covanni Çezare Paqatzi, həmçinin Heydər Əliyev Mərkəzindəki sərgilərlə tanış olublar. Klassik avtomobillər sərgisinə ziyarət zamanı Heydər Əliyev Mərkəzinin direktoru, Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov müxtəlif dövrlərə aid avtomobillər barədə qonağa ətraflı məlumat verib. Daha sonra qonaqlar su ehtiyatlarının qorunmasına çağırış edən "Mənim dənizlərim, mənim okeanlarım" sərgisi ilə tanış olublar. Qeyd edək ki, Heydər Əliyev Fondu və IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təşəbbüsü ilə təşkil edilən ekspozisiyada müasir rəssamların çirklənmə və həddindən artıq balıq ovundan tutmuş, bioloji müxtəlifliyin itirilməsinə qədər bir sıra qlobal problemləri əks etdirən əsərləri təqdim edilir. Əsərlərdə su həyatın, yenilənmənin və təsəvvürün mənbəyi kimi təsvir olunur.

# 35 il bir yerdə

## İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqının sədrliyi İndoneziyadan Azərbaycana keçib

Azərbaycan dövləti və xalqı İslam dünyasının bir hissəsi olması ilə qürur duyur. Bu bağlılığın təzahürü olaraq Prezident İlham Əliyevin qeyd etdiyi kimi, müsəlman ölkələri ilə həm ikitərəfli əsasda, həm də ortaq təşkilatlar çərçivəsində münasibətlərin inkişafı ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Qarşılıqlı etimadın güclənməsinin nəticəsi olaraq indiyədək Azərbaycanla İslam coğrafiyasında yer alan ayrı-ayrı dövlətlər arasında sıx siyasi təmaslar qurulub, enerji, nəqliyyat, humanitar və digər istiqamətlərdə çoxsaylı layihələr reallaşdırılıb.

## Azərbaycan İslam ölkələri arasında çoxsaylı əlaqələrin inkişafına mühüm töhfələr verir

Organisation of Islamic Cooperation

Elə dövlətlər var ki, üzv olduğu beynəlxalq təşkilatlarla və yaxud ayrı-ayrı ölkələrlə münasibətlərini sırf öz maraqları çərçivəsində qurmağa çalışır. Belə dövlətlər adətən məhdud imkanlara malik olurlar və daim öz problemlərini başqalarından yardım almaqla həll etməyə çalışırlar. Respublikamız bu qəbildən olan dövlətlər sırasında yer almır. Güclü potensiala malik Azərbaycan bir qayda olaraq öz imkanlarını təqdim etməklə yaranan qlobal çağırışlar qarşısında beynəlxalq həmrəyliyin güclənməsinə çalışır, üzv olduğu təşkilatların funksionallığının artmasına müsbət təsir göstərir. Bunu biz həmçinin respublikamızın İslam ölkələri və onları bir araya gətirən təşkilatlarla əməkdaşlığında da müşahidə edirik. O cümlədən Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və onun Parlament İttifaqı çərçivəsində fəal iştirak edərək İslam həmrəyliyinin, parlamentlərarası əməkdaşlığın və üzv dövlətlər arasında çoxşaxəli əlaqələrin inkişafına mühüm töhfə verir.

Eyni zamanda, respublikamızın İslam dünyasına münasibətdə daim xoş məramdan çıxış etməsi bu geniş coğrafiyada yerləşən dövlətlərdə və onları birləşdirən təşkilatlarda Azərbaycana qarşı böyük etimad formalaşdırıb. Bu günlərdə Bakıda İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının keçirilməsi də bu etimadın növbəti təzahürüdür. Qeyd edək ki, sözügedən təsisat İslam dünyasında böyük nüfuza malikdir. Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının iştirakçılarına ünvanladığı məktubunda qurumun önəminə diqqət çəkərək vurğulayıb: "Qardaş ölkələrin qanunverici orqanlarını birləşdirən bu mötəbər platforma parlamentlərarası əməkdaşlığın gücləndirilməsi, siyasi, iqtisadi, sosial və humanitar sahələrdə əlaqələrin inkişaf etdirilməsinə xidmət etməklə yanaşı, İslam həmrəyliyinin möhkəmləndirilməsini təmin edən vacib mexanizmlərdən biri kimi xüsusi əhəmiyyət kəsb edir".

Öz növbəsində, məsuliyyətli dövlət olan Azərbaycan tədbirin uğurla keçməsi üçün yüksək səviyyədə hazırlıqlar görüb və bu, iştirakçılar tərəfindən də xüsusi qeyd edilib. İttifaqın baş katibi Muhammed Xurayçi Niyass İslam dünyasında dayanıqlı və inklüziv inkişafın təşviqi məqsədilə keçirilən konfransa göstərdiyi yüksək himayəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirib. Baş katib vurğulayıb ki, bu, Prezident İlham Əliyevin İslam əməkdaşlığına verdiyi dəyərin bariz nümunəsidir. Eyni zamanda, Bakının bu cür genişmiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi üçün etibarlı və fəal rolunu bir daha nümayiş etdirir.




Vurğulandığı kimi, tədbir son dərəcə mürəkkəb bir dövrdə baş tutub. Beynəlxalq ədalət sistemində uçurum dərinləşir, İslam aləmi isə ciddi çağırışlarla üz-üzədir. Belə bir şəraitdə Azərbaycan İslam dünyasının mühüm tədbirinə ev sahibliyinin məsuliyyətini öz üzərinə götürməklə həmrəylik mühiti yaratmaq missiyasını növbəti dəfə nümayiş etdirib. İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasında Bakı Bəyannaməsi qəbul edilib. Bəyannamənin mətnini Milli Məclisin deputatı Ceyhun Məmmədov oxuyub. Sənəddə İƏT Parlament İttifaqının Nizamnaməsində təsbit olunmuş məqsədlərə sadiqlik, həmçinin İslam Əməkdaşlıq Təşkilatının Nizamnaməsi, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi və beynəlxalq hüququn məqsəd və prinsiplərinə hörmət etmək öhdəliyi bir daha təsdiq edilib. Eyni zamanda, dövlətlərimizin qarşılaşdığı çoxsaylı mürəkkəb çağırışları və dəyişən təhlükələri, o cümlədən kiberhücumları, terrorizmi və islamofobiyanın artan təzahürlərini nəzərə alaraq, bu təhdidlərin beynəlxalq sülhə və təhlükəsizliyə, həmçinin dünya üzrə müsəlman icmalarının dinc yanaşı yaşamasına və sosial həmrəyliyinə mənfi təsirindən dərin narahatlıq ifadə edilib.

Bütövlükdə, tədbirin gündəliyi kifayət qədər geniş olub və aktual müzakirələr aparılıb. O cümlədən Milli Məclis sədrinin müavini Rafael Hüseynovun sədrliyi ilə keçirilən iclasda İƏT Parlament İttifaqı komitələrinin hesabatları qəbul olunub. 400-dən artıq nümayəndənin iştirak etdiyi tədbir dünən yekunlaşıb.

Ən mühüm məqamlardan biri isə ondan ibarətdir ki, iyunun 24-də baş tutan açılış mərasimində İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqının sədrliyi İndoneziyadan Azərbaycana keçib. Şübhə yoxdur ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqının sədrliyini böyük uğurla həyata keçirəcək.

## İƏT ölkəmizin suverenliyi və ərazi bütövlüyünə daim dəstək göstərib

Azərbaycan 1991-ci il dekabrın 8-də İƏT-in Dakarda keçirilmiş dövlət və hökumət başçılarının 5-ci konfransında İƏT-a tamhüquqlu üzv qəbul edilib. Həmin vaxtdan etibarən respublikamız qurumla əməkdaşlığı yüksək fəallıq şəraitində davam etdirir. Bu əməkdaşlıq bir sıra əlamətdar hadisələrlə yadda qalıb. Ölkəmiz İƏT və onun qurumlarının tədbirlərinə məmnuniyyətlə ev sahibliyi edir. "Bu il Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatına üzv olmasından 35 il ötür. İƏT Azərbaycanın müstəqilliyinin bərpasından sonra qoşulduğu ilk beynəlxalq təşkilatlardandır. Qürurla qeyd edə bilərik ki, bu illər ərzində ölkəmiz İslam həmrəyliyinin gücləndirilməsinə töhfə vermiş, İƏT-in fəaliyyətində təşəbbüskar və məsuliyyətli rol oynamış, məqsəd və prinsiplərinə sadiq qalmış, beynəlxalq müstəvidə nüfuzunun artırılmasında fəal iştirak etmişdir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Şübhə yoxdur ki, Azərbaycan-İƏT əməkdaşlığı gələcəkdə də möhkəm təmələ əsaslanmaqla daha da genişlənəcək. 2027-ci ildə Azərbaycanda İslam Zirvə Konfransının 16-cı Sessiyası keçiriləcək və ölkəmiz İƏT-də sədrliyi öz üzərinə götürəcək.

Eyni zamanda, Azərbaycan da hər zaman haqq mübarizəsində İslam dünyasının ölkəmizlə həmrəyliyini hiss edib. İƏT Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə daim dəstək göstərib, Ermənistanın işğalçılıq siyasətini qınayıb, həmçinin işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərini alqışlayan qətnamə və bəyanatlar qəbul edib. Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair İƏT çərçivəsində Təmas Qrupunun fəaliyyətini xüsusi vurğulamaq lazımdır. Xalqımız qardaş ölkələrin bu münasibətini yüksək dəyərləndirir.

## 30 illik işğal dövründə İslam dininə aid irs nümunələri ciddi dağıntılara məruz qalıb

Ermənistanın Azərbaycana qarşı 30 il ərzində davam etdirdiyi işğalçılıq siyasətinin fəsadları çox ağırdır. Təəssüf doğuran haldır ki, işğal dövründə Ermənistan tərəfindən urbisid və kultursidə məruz qalan şəhər və kəndlərimizdə bəşəri əhəmiyyətə malik məscidlər və çoxəsrlik İslam memarlığı abidələri qəsdən dağıdılıb və talan olunub. O cümlədən 67 məsciddən 65-i məhv edilib, bir sıra dini abidələrimiz isə təhqirlərə məruz qalıb.

Bu gün işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı yenidənqurma işləri çərçivəsində dağıdılmış dini ocaqlarımız tarixi görkəmi nəzərə alınmaqla bərpa edilir, yeni məscidlər tikilir, minarələrdən uzun illərdən sonra yenidən azan sədaları ucalır.

Prezident İlham Əliyev torpaqlarımızda İslam mədəni irsinə qarşı törədilmiş cinayətləri islamofobiyanın açıq-aydın təzahürü kimi dəyərləndirib. Dövlətimizin başçısının bildirdiyi kimi, bu gün dünyada müsəlmanlara qarşı nifrətin aşılanması, İslam mədəni irsinin hədəfə alınması və İslam dəyərlərinin təhqir olunması geniş vüsət almışdır. Müqəddəs kitabımız "Qurani-Kərim"in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s) karikaturalarının nəşr edilməsi heç bir halda ifadə azadlığı ilə əsaslandırıla bilməz və tamamilə qəbuledilməzdir. Dərin təəssüf doğuran məqam həm də ondan ibarətdir ki, bir sıra Qərb təsisatları, o cümlədən Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi qurumlar da İslamı ekstremizm və terrorizmlə eyniləşdirməyə yönəlmiş qərəzli yanaşmalar sərgiləyirlər. Azərbaycan islamofobiyanı qlobal təhlükə kimi dəyərləndirir və İslam dəyərlərinə və müsəlmanlara qarşı ayrı-seçkiliyin, nifrət çağırışlarının, dini təhqirlərin qəbuledilməz olduğunu vurğulayır. Ölkəmiz bu problemlə mübarizəyə beynəlxalq diqqətin artırılmasına davamlı çağırışlar edir. "İslamofobiya ilə mübarizəyə beynəlxalq diqqətin daha da artırılması məqsədilə ölkəmizdə bu mövzuya həsr olunmuş beynəlxalq konfranslar təşkil edilir. İslamofobiyanın narahatedici şəkildə getdikcə yayıldığı bir dövrdə Azərbaycanın bu konfranslara ev sahibliyi etməsi dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi və dinimizlə bağlı stereotiplərin aradan qaldırılması baxımından böyük əhəmiyyət kəsb edir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# Qərbi Azərbaycanlıların qayıdış hüququ...









## Vaşinqtonda Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib

İyunun 24-də ABŞ-ın paytaxtı Vaşinqtonun Konqres binasında (Kapitol Hill) Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Qayıdış hüququ və öz müqəddəratını təyinetmə: ikili standartlar və selektiv yanaşmalar" mövzusunda beynəlxalq konfrans keçirilib. Konqresdə keçirilən bu tədbir azərbaycanlıların Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmasına dair həqiqətlərin beynəlxalq ictimaiyyət tərəfindən tanıdılması işinə mühüm töhfə kimi qiymətləndirilə bilər.

Konfransda qaçqınların və milli azlıqların hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşmış ekspertlər, insan hüquqları müdafiəçiləri, beynəlxalq hüquq üzrə mütəxəssislər, vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri və Qərbi Azərbaycan kökənli həmvətənlərimiz iştirak ediblər. Tədbir iştirakçıları etnik təmizləmə siyasəti nəticəsində Ermənistandakı tarixi torpaqlarından zorla qovulmuş yüz minlərlə azərbaycanlının fundamental hüquqlarının qorunmasını vacib hesab ediblər. Onlar soydaşlarımızın öz doğma yurdlarına təhlükəsiz, könüllü və ləyaqətli şəkildə qayıdış hüququnun beynəlxalq təşkilatların diqqət mərkəzində saxlanılmasının əhəmiyyətini vurğulayıblar.

Ermənistanda qalan Azərbaycan xalqına məxsus mədəni, dini və tarixi irsin, o cümlədən toponimlərin, məscidlərin, qəbiristanlıqların, ziyarətgahların və digər abidələrin sistemli şəkildə dağıdılması, təhqir olunması və mənimsənilməsi faktlarına beynəlxalq hüquq müstəvisində hüquqi qiymət verilməsi və bu xüsusda qeyd olunan pozuntuların beynəlxalq təşkilatlar tərəfindən yerində araşdırılması və sənədləşdirilməsi tələb olunub.

Tədbiri ABŞ-da fəaliyyət göstərən erməni mediasının nümayəndələri, o cümlədən Amerika Erməni Milli Komitəsinin (ANCA) təmsilçiləri də zaldan izləyiblər. Lakin tədbirin gedişi zamanı hər hansı insident qeydə alınmayıb.

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov çıxışında bildirib ki, XX əsr boyu - 1905-ci ildən başlayaraq, 1991-ci ilə qədər qərbi azərbaycanlılar öz dədə-baba yurdlarından didərgin salınıblar. Onun sözlərinə görə, mövzunun müəyyən qüvvələr tərəfindən beynəlxalq ictimaiyyətə hələ də kifayət qədər düzgün çatdırılmasına imkan verilmir: "Bakı Təşəbbüs Qrupu olaraq digər vətəndaş cəmiyyəti institutlarına, beynəlxalq təşkilatlara, beynəlxalq institutlara çağırış edərək bildiririk ki, 1991-ci ilə qədər davam edən etnik təmizləmə siyasəti ilə bağlı aidiyyəti qüvvələr və təşkilatlar beynəlxalq təşkilatlar qarşısında cavab versinlər".

Eyni zamanda, tədbirdə ABŞ Müsəlman Təşkilatları Şurasının Baş katibi Oussama Cammal və "Our Sister Our Brother" təşkilatının təsisçisi və baş icraçı direktoru Metyu Stevart çıxış edərək, etnik zəmində ayrı-seçkiliyin, məcburi didərginliyin və hüquq pozuntularının yolverilməzliyini qeyd edib, didərgin salınmış icmaların hüquqlarının müdafiəsi, onların səsinin beynəlxalq platformalarda eşidilməsi və beynəlxalq həmrəyliyin gücləndirilməsinə diqqət çəkiblər.

Konfransda çıxış edən ABŞ-da yaşayan Qərbi Azərbaycanəsilli həmvətənlərimiz öz şəxsi hekayələrini və qaçqınlıq təcrübələrini bölüşərək, Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların yaşadığı humanitar faciəni təqdim ediblər. Zikh icmasının nümayəndələri isə təhlükəsiz, könüllü və ləyaqətli qayıdış hüququnun yalnız humanitar məsələ deyil, həm də fundamental insan hüququ və tarixi ədalətin bərpası məsələsi olduğunu vurğulayıblar.

Tədbirin sonunda konfrans iştirakçıları tərəfindən ABŞ Konqresinin üzvlərinə ünvanlanmış müraciət qəbul olunub. Müraciətdə beynəlxalq hüququn norma və prinsiplərinin qərəzsiz, ardıcıl və ayrı-seçkiliyə yol verilmədən tətbiq edilməsinin vacibliyi vurğulanıb. Sənəd müəllifləri xüsusilə Qərbi azərbaycanlıların öz doğma torpaqlarına təhlükəsiz, könüllü və ləyaqətli şəkildə qayıtmaq hüququnun təmin edilməsinə çağırıblar. Konfrans iştirakçıları beynəlxalq ictimaiyyətin Qərbi azərbaycanlıların öz yurdlarına qayıdışına dəstək verməsi, onların mülkiyyət hüquqlarının bərpası və mədəni irsinin qorunmasına yardım göstərməsi ilə bağlı gözləntilərini ifadə ediblər. Müraciətdə qeyd olunub ki, qayıdış hüququ beynəlxalq hüququn fundamental prinsiplərindən biridir və bu hüququn təmin olunması selektiv yanaşmalardan kənar həyata keçirilməlidir.

Sənəddə ABŞ Konqresi üzvləri Qərbi azərbaycanlıların üzləşdiyi problemlərə və onların qayıdış hüququ ilə bağlı səsləndirilən faktlara ciddi diqqət yetirməyə çağırılıb. Konqres üzvlərindən bu məsələ ilə bağlı dinləmələr, brifinqlər və məsləhətləşmələr təşkil etmələri, aidiyyəti icmalarla birbaşa dialoqu təşviq etmələri və insan hüquqları prinsiplərinin ardıcıl tətbiqinə dəstək vermələri xahiş olunub.

Müraciətdə, həmçinin siqh icmasının hüquqları, eləcə də Aruba, Kurasao, Sent-Martin, Sint Eustatius və Saba xalqlarının öz müqəddəratını təyinetmə hüququ ilə bağlı məsələlərə toxunulub. Konfrans iştirakçıları bu icmaların dini, mədəni və dil kimliklərini qorumaq, siyasi və konstitusion gələcəkləri barədə mövqelərini sərbəst ifadə etmək hüquqlarının təmin edilməsinin vacibliyini vurğulayıblar.

Bununla yanaşı, Hindistan hökuməti tərəfindən siqh icmasının nümayəndələrinə qarşı ayrı-seçkilik, təzyiq, fundamental azadlıqların məhdudlaşdırılması və transmilli repressiya iddialarının qərəzsiz və hərtərəfli araşdırılmasına çağırış edilib.

Konfrans iştirakçıları müraciətdə qaldırılan məsələlərin ABŞ Konqresində müzakirəyə çıxarılmasını xahiş edərək, xüsusilə Qərbi azərbaycanlıların qayıdış hüququnun təmin olunması istiqamətində beynəlxalq dəstəyin gücləndirilməsinə çağırıblar. Onlar Konqres üzvlərinin bu məsələlərlə bağlı cavab və dəstəyini gözlədiklərini bildiriblər.

*Nardar BAYRAMLI*

## Beynəlxalq aləm Azərbaycan həqiqətləri ilə yaxından tanış olur

# Qərbi azərbaycanlıların qayıdış hüququ bərpa edilməlidir

Tarixi torpaqlarımız sayılan Qərbi Azərbaycandan azərbaycanlıların qovulması, deportasiya olunması son 200 illik tariximizin ən ağrılı məqamlarındandır. Xalqımıza qarşı sistemli şəkildə həyata keçirilmiş bu etnik təmizləmə siyasəti XX yüzillikdə daha da intensiv şəkil alıb. XX əsrin ilk dövrlərindən başlayaraq həyata keçirilən deportasiyanın ən genişmiqyaslı olanı 1987-1988-ci illərdə reallaşıb. Ermənistan milli ayrı-seçkilik siyasəti nəticəsində yüz minlərlə azərbaycanlının dədə-baba yurdlarından zorla qovub, onların evləri talan edilib, maddi və mənəvi irs məhv edilib. 40 ilə yaxındır ki, bu insanlar öz doğma torpaqlarına qayıdış həsrəti ilə yaşayır və ata-babalarının yaşadığı əraziləri görmək hüququndan belə məhrumdurlar. Halbuki hər bir insanın doğulduğu torpağa dönmək, orada yaşamaq, öz mülkiyyətinə sahib olmaq ən fundamental beynəlxalq hüquq prinsiplərindən biridir. Ermənistan isə bu təməl insan hüququnu pozmaqla təkcə azərbaycanlılara qarşı deyil, həm də beynəlxalq hüquq normalarına qarşı kobud şəkildə çıxış edir.

Müstəqil Azərbaycan dövləti isə bu ədalətsizliyə son qoymaq, zorla didərgin salınmış soydaşlarımızın hüquqlarını bərpa etmək üçün ardıcıl və sistemli fəaliyyət nümayiş etdirir. 2020-ci ildə başa çatan II Qarabağ müharibəsi regionda yeni siyasi və təhlükəsizlik reallıqları yaratdı. Bu reallıq həm də Qərbi Azərbaycana qayıdış konsepsiyasının hüquqi-siyasi əsaslarını möhkəmləndirdi. Sülh gündəliyinin əsas elementlərindən biri kimi ortaya çıxan münasibətlərin normallaşması prinsipi məhz tarixi torpaqlarından deportasiya edilmiş azərbaycanlıların hüquqlarının bərpasını da gündəmə gətirir. Azərbaycan dövləti artıq bu istiqamətdə institusional baza formalaşdırıb, hüquqi mexanizmləri müəyyən edib və beynəlxalq səviyyədə bu məsələnin tanıdılması üçün ardıcıl addımlar atır. Qərbi Azərbaycan məsələsi sırf humanitar xarakter daşımır, həm də ədalətin, insan hüquqlarının, tarixi yaddaşın bərpası kimi böyük ümummilli məna kəsb edir. Bu, təkcə keçmişin yox, həm də ölkənin gələcək sülh modelinin mühüm tərkib hissəsidir.

## Fəal iş aparılır...

Yeri gəlmişkən, iyunun 24-də Vaşinqtonda Konqres binasında (Kapitol Hill) Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Qayıdış hüququ və öz müqəddəratını təyinetmə: ikili standartlar və selektiv yanaşmalar" mövzusunda keçiriləcən beynəlxalq konfransda vurğulandığı kimi, Qərbi Azərbaycana qayıdış konsepsiyası bu tarixi torpaqlarımızdan qovulmuş soydaşlarımızın hüquqi-siyasi təmsilçiliyini təmin etməyə yönəlib. Təşkilat 1989-cu ildən Qərbi Azərbaycan qaçqınlarının problemləri ilə məşğul olan və 1988-1991-ci illərdə qaçqın düşən azərbaycanlılar barədə faktların və sənədlərin toplandığı və saxlandığı yeganə ictimai qurumdur. Qərbi Azərbaycanda yüzlərlə yaşayış məntəqəsindən qovulan qaçqınların




lan azərbaycanlıların fundamental hüquqlarının bərpası prinsipini özündə əks etdirir. 2022-ci ildə Qərbi Azərbaycan İcmasının yaradılması isə müasir dövr üçün strateji əhəmiyyət daşıyan qərarlardan biridir. Bu İcmanın formalaşdırılması, ilk növbədə, Qərbi Azərbaycandan deportasiya hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılıb, kəndlərin siyahısı işlənib. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısını hazırlayıb. İcmanın qəbul etdiyi "Qayıdış Konsepsiyası" isə Qərbi Azərbaycana ədalətli və mərhələli şəkildə qayıdışın məqsədlərini, prinsiplərini və icra mexanizmlərini dəqiq şəkildə ortaya qoyur. Bu sənəd yalnız humanitar xarakter daşımır, həm də beynəlxalq hüququn fundamental müddəalarına söykənir və dövlətlərin öz vətəndaşlarının hüquqlarına təminat verməsi prinsipini əsas tutur. Konsepsiyada göstərilir ki, qayıdış prosesi mütləq dinc, hüquqi və beynəlxalq mexanizmlər çərçivəsində həyata keçirilməlidir. Sənəddə Qərbi Azərbaycanda yaşayan azərbaycanlılara qarşı həyata keçirilmiş deportasiyalar, onların mülkiyyət hüquqlarının pozulması, mədəni irsinin dağıdılması faktları ayrıca vurğulanır və bu faktlar beynəlxalq hüquq müstəvisində tanıdılmaq üçün sənədləşdirilir. Qərbi Azərbaycan Konsepsiyası uzun illərdir pozulan ədalətin bərpası üçün qəbul edilmiş mütləq və əhatəli strategiyadır. Hələ 2022-ci ilin dekabrında Prezidenti İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olan və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşən zaman bildirmişdi ki, biz vaxt itirməməliyik. Qayıdış Konsepsiyası hazırlanmalıdır: "Yenə də bu, necə deyərlər, sülhsevər konsepsiya olmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik. Qayıdış Konsepsiyası olmalıdır".

## Qərbi azərbaycanlıların qayıdış hüququ beynəlxalq müstəvidə...

Göründüyü kimi, artıq bu istiqamətdə beynəlxalq aləmlə fəal iş aparılır. Belə bir tədbirin Vaşinqtonda, Konqres binasında keçirilməsi isə xüsusi əhəmiyyət daşıyır. Uzun illər erməni lobbisinin yalan təbliğatı üzərindən hədəfə alınan Azərbaycana qarşı qlobal aləmdə ikili standartlar müəyyənləşmişdi. Artıq o dövr arxada qalıb. Prezident İlham Əliyevin apardığı fəal xarici siyasət nəticəsində bu gün dünya artıq erməni yalanlarına inanmır - 44 günlük Vətən müharibəsi dövründə onlarla beynəlxalq media strukturlarına müsahibə verən dövlət başçımız uzun illər ölkəmizə qarşı yönələn bu yalan təbliğatı darmadağın etdi. Bu gün isə artıq beynəlxalq aləm, o cümlədən Qərb əsl həqiqətlərlə tanış olur. İstər Avropada, istərsə də ABŞ-da Azərbaycanın bölgəmizdə apardığı sülhpərvər siyasət, barış konsepsiyası, revanşizmə deyil normallaşmaya yönəlik konsepsiya yürütdüyü qəbul olunur. Qeyd edək ki, Qərbi Azərbaycan İcmasının qəbul etdiyi sənədlərin BMT sistemində yayılması və beynəlxalq hüquqi sənəd statusu alması, Bakı Təşəbbüs Qrupunun fəal işi bu istiqamətdə ciddi yeniliklər yaradıb. Azərbaycan tərəfi sübutlarla göstərir ki, deportasiya faktı realdır, azərbaycanlılar zorla öz torpaqlarından qovulub, onların mülkiyyəti yağmalanıb - bu cinayətlərə görə Ermənistan beynəlxalq hüquqi məsuliyyət daşıyır.



Yeni geosiyasi reallıqlar göstərir ki, Ermənistan həm beynəlxalq hüquq, həm də sülh prinsipləri çərçivəsində davranmalı, azərbaycanlıların qayıdış hüququnu tanımalı və bu hüququn təmin olunması üçün real addımlar atmalıdır. Qayıdışın reallaşması sülh sazişini daha da möhkəmləndirir - çünki sülh həm də ədalət bərpa edildikdə möhkəm ola bilər.

*Pərviz SADAYOĞLU*

# Müasir çağırışlara əsaslanan təhsil islahatları

Elm və təhsil naziri Emin Əmrullayevin "Xəzər TV"," APA" və "Trend" İnformasiya Agentliklərinə verdiyi müsahibədə Azərbaycan təhsil sistemində aparılan islahatlar, məktəbəqədər, ümumi, peşə və ali təhsilin inkişafı, tədrisin keyfiyyəti, rəqəmsallaşma və süni intellektin təhsildə tətbiqi, gələcəyin təhsil modeli və digər aktual məsələlərə dair fikirlərini bölüşdü. Bu, ölkəmizin təhsil sistemində aparılan islahatlara müasir baxışı əks etdirməklə, təhsilin məzmunu, təhsildə keyfiyyətin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

**Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu təhsil siyasəti**

Təhsil siyasəti hər bir ölkənin strateji hədəflərində birinci yerdə durur, inkişaf konsepsiyasının mühüm tərkib hissəsi kimi qəbul edilir. Ölkəmizdə təhsilə qayğı və diqqət, onun inkişafının dəstəklənməsi Ümummilli Lider Heydər Əliyevin dövlət quruculuğunun mühüm tərkib hissəsi kimi mühüm yer tutmuşdur. Onun milli müstəqillik, milli dövlət quruculuğu strategiyasında isə belə bir ideya əsaslandırıldı ki, dövlət müstəqilliyinin əbədiliyinin, vətəndaş cəmiyyətinin demokratik inkişafının magistral və hamar yolu mütləq və mütləq milli təhsildən keçir. Təhsil dövlətin təməl daşı, millətin gələcəyidir. Buna görə də o, prioritet sahə olan təhsilə, elmə, mədəniyyətə qayğını dövlətin əsas strateji xətti kimi ön plana çəkdi.

Ulu Öndər tərəfindən əsası qoyulan milli təhsil siyasəti təhsilin məzmununda köklü dəyişikliklərə və yenilənmələrə geniş hüquqi zəminlər yaratdı. Onun təhsil siyasətinin fəlsəfəsi Azərbaycan təhsilini artıq öz sistemini yarada bilməklə bərabər, uğurlu nəticələrini qazanmış ölkələrin təhsil təcrübələri ilə zənginləşdirməkdən ibarət idi. 1999-cu ildə "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nın təsdiq olunması bütün təhsil sistemində, o cümlədən ali təhsil pilləsində islahatlar sistemli xarakter aldı, fənyönümlü təhsil sistemindən şəxsiyyətyönümlü təhsilə keçid təmin edildi. Həmin proqram əsasında digər pillələrdə olduğu kimi, ali təhsildə də struktur dəyişiklikləri aparıldı, mütəxəssis hazırlığının strukturuna yeni ixtisaslar əlavə olundu. 2000-ci il iyunun 13-də imzalanmış "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərman təhsil sisteminin əsaslı şəkildə təkmilləşdirilməsinə, idarəetmənin müasir prinsiplər üzrə təşkilinə, təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasına və dünya təhsil sisteminə inteqrasiyasına zəmin yaratdı.

Həyata keçirilən islahatlar çərçivəsində ali təhsilin Avropa strukturları ilə Avropa təhsil sisteminə inteqrasiyası istiqamətində köklü addımlar atıldı. "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın təsdiq olunması ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Bolonya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbedici və rəqabət qabiliyyətliliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, habelə informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsində güclü hüquqi zəmin yaratdı. İslahatın gətirdiyi yeniliklər təhsilin idarə olunmasında, məzmununda, təlim strategiyalarında, qiymətləndirmədə öz mühüm əksini tapdı.

**Təhsil islahatları yeni mərhələdə**

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan təhsil siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək yeni mərhələyə daxil olub. "Təhsil millətin gələcəyidir" deyən dövlət başçısı bu prinsipə sadiq qalaraq təhsilin həm maddi-texniki bazasının gücləndirilməsi, həm yeni innovasiya cəmiyyətinə uyğun inkişafı, həm də beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Bu, kompleks tədbirlər planı çərçivəsində təhsil müəssisələri əsaslı şəkildə yenidən qurulub, müəllimlərin sosial təminatı və peşəkar inkişafı yaxşılaşdırılıb, ali təhsildə beynəlxalq əlaqələr genişləndirilib, müasir texnologiyalar və işəgötürənlərlə əməkdaşlıq əsasında yeni ixtisaslar tədris olunub, rəqəmsal təhsil təşəbbüsləri genişləndirilib.

Ümumilikdə, son 23 ildə təhsilə dair qəbul edilən yeni Dövlət Proqramları, mühüm qanunvericilik aktları təhsilin keyfiyyətində əsaslı dəyişikliklərə səbəb oldu. Eyni zamanda, inkişafın əsas atributlarından biri olan neft kapitalının insan kapitalına çevrilməsi yönündə qətiyyətli addımlar atıldı. Gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədilə "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" icra edilməkdədir.

**Prezident İlham Əliyevin tövsiyəsi**

Son illərdə cəmiyyətin tələbatı təhsilin inkişafını daha da sürətləndirib, elmi və texnoloji nailiyyətlər isə təhsil sistemi qarşısında həlli vacib olan daha mürəkkəb vəzifələr qoymaqdadır. Qloballaşmanın geniş vüsət aldığı hazırkı mərhələdə, rəqəmsal cəmiyyətdə sosial-iqtisadi fəaliyyət sahələrindəki rəqabətin gücləndiyi bir vaxtda təhsilin və elmin rolu daha da artmaqdadır. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında xüsusilə ali təhsilin rolu mühüm əhəmiyyət kəsb edir.

Müasir dünyada hər bir ölkənin uğurlu gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə müəyyən olunur. Təcrübə göstərir ki, təbii sərvətlərin bolluğu dövlətin inkişafının əsas göstəricisi deyil, başlıcası, bu sərvətlərin cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına çevrilməsini təmin etməkdir. Bu, indiki mərhələdə təhsil sisteminin ən zəruri vəzifəsidir. Cənab Prezident İlham Əliyev cari il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində elm və təhsil sahəsində aparılan islahatlarla bağlı sualı cavablandırarkən bildirdi ki, "əgər biz doğrudan da elmi inkişaf etdirmək istəyiriksə, sadəcə, elmi işçiləri işlə təmin etmək yox, elmi inkişaf etdirmək istəyiriksə, bu islahatlara getməliyik. Bu, qaçılmazdır. Biz bunu etməsək, onda inkişafın da müəyyən məhdudiyyətləri olacaq. Çünki mən bunu dəfələrlə demişəm, bir daha deyirəm tam şüurlu şəkildə, inkişaf etmiş ölkələrin inkişafı ancaq zəka, ağıl, təhsil, elmlə bağlıdır, neftlə, qazla yox. Baxın, neftlə, qazla zəngin olan ölkələrin və inkişaf etmiş ölkələrin vəziyyətinə. Bəli, neftlə, qazla zəngin olan ölkələr arasında uğurlu ölkələr var, çox deyil, amma var. Onların texnologiyaları haradan gəlir? Onlar özləri onları icad edir? Yox, o, beyin mərkəzlərindən, texnoloji mərkəzlərdən gəlir. O da nəyə bağlıdır? Təhsilə, elmə. Sadə məsələdir. Ona görə də biz bu istiqamətdə fəal işləməliyik".

Dövlət başçısının çıxışından göründüyü kimi, rəqəmsal gələcəyin möhkəm təməli məhz təhsil sistemində atılan addımlarla qoyulur. Təhsildə əsaslı islahatlar yalnız tədris metodlarının yenilənməsi deyil, həmçinin təhsil mühitinin tamamilə modernləşdirilməsidir. Ələlxüsus da, rəqəmsal texnologiyalar tədrisdə öz dərin təsirlərini göstərməkdədir. Bu gün qlobal mühitdə rəqabətin yeni siması - süni intellekt mübarizəsi dərinləşir. Bir çox ölkənin iqtisadi dəyər zəncirində süni texnologiyalar və rəqəmsal xidmətlər əsas yer tutur. On il əvvəl bu sahə barədə heç kim danışmırdısa, indi inkişaf etmiş cəmiyyətlərin hərəkətverici bazisi süni zəka sektorudur. Dövlət başçısı müasir reallığı nəzərə alaraq Azərbaycanın elm və təhsil sistemində süni intellektin geniş tətbiqini tövsiyə edib.

**Ali təhsildə rəqəmsal transformasiya**

Ölkəmizdə də bu sahədə zəruri infrastrukturlar qurulub. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda erkən yaşlardan rəqəmsal səriştələrin inkişaf etdirilməsi, İKT-nin təhsildə tətbiqi və distant təhsil imkanlarının genişləndirilməsi əsas prioritet istiqamətlərdən biri kimi müəyyən edilib. Rəqəmsal transformasiya ali təhsil sistemində də öz əksini tapır. Elm və Təhsil Nazirliyi tərəfindən icra olunan "Code for Future" layihəsi isə Azərbaycanın rəqəmsal transformasiya hədəflərinə töhfə vermək məqsədilə həyata keçirilən irimiqyaslı təhsil təşəbbüsüdür. Layihənin əsas missiyası ali təhsil müəssisələrində təhsil alan tələbələri müasir əmək bazarının tələblərinə cavab verən praktiki IT bilik və bacarıqlarla təmin etmək, nəzəri biliklərlə sənaye təcrübəsi arasında körpü yaratmaqdır. Bu təşəbbüs, akademik dairələrlə qabaqcıl texnologiya şirkətləri arasında qurulmuş strateji tərəfdaşlıq sayəsində reallaşdırılır.

Layihənin effektivliyini və əlçatanlığını təmin etmək məqsədilə ölkənin nüfuzlu universitetləri, o cümlədən Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə genişmiqyaslı əməkdaşlıq qurulub. "Code for future" proqramı çərçivəsində IT sahələri üzrə praktiki modullar universitetlərin tədris prosesinə inteqrasiya olunub. Bu akademik şəbəkə layihənin müxtəlif ixtisaslar üzrə təhsil alan minlərlə tələbəyə çatmasına imkan yaradır. Gələcək perspektivdə süni intellekt və alaqəli sahələr üzrə yeni ixtisasların yaradılması, mövcud təhsil proqramlarının beynəlxalq təcrübəyə uyğun olaraq yenilənməsi və multidissiplinar yanaşmanın tətbiqi nəzərdə tutulur.

**105 illik təhsil ocağı yeni inkişaf mərhələsində**

Qeyd edilən məsələlərin kontekstindən çıxış edərək təhsildə aparılan islahatların müasir flaqmanlarından biri kimi 105 illik qocaman təhsil ocağı olan Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) adını da xüsusi vurğulamaq lazımdır. Cənab Prezident İlham Əliyev bildirmişdir ki, "Azərbaycan Dövlət Pedaqoji Universiteti ölkəmizin təhsil tarixində xüsusi yer tutan, zəngin ənənələrə malik ali təhsil müəssisələrindəndir. Universitet müəllim hazırlığı sahəsində və pedaqoji təhsilin inkişafı naminə bu gün də uğurlu fəaliyyəti ilə müstəqil Azərbaycanın inkişafına töhfələrini əsirgəmir".

Dövlət başçısının verdiyi tapşırıqları uğurla icra etmək üçün ADPU-da davamlı şəkildə tədrisin keyfiyyətinin artırılması və müəllim hazırlığının müasir standartlara uyğunlaşdırılması üçün genişmiqyaslı islahatlar həyata keçirilir. Universitetin rektoru, professor Cəfər Cəfərovun rəhbərliyi ilə aparılan əhatəli islahatlar Azərbaycan təhsil sisteminə verilən ən dəyərli töhfələrdən hesab edilə bilər. Pedaqoji Universitetdə tədris proqramlarının yenilənməsi, infrastrukturun təkmilləşdirilməsi, eləcə də praktik-laborator imkanların artırılması həm yüksək nəticə göstərən tələbələrin universitetə cəlb olunmalarında, həm də Pedaqoji Universitet məzunlarının MİQ imtahanlarında yüksək nəticələr əldə etmələrində özünü göstərir. İmtahanlarda yüksək nəticə göstərənlər arasında ADPU-nu son illərdə bitirən gənc müəllimlərin üstünlük təşkil etməsi universitetimizin uğurlu göstəricilərindən sayıla bilər.

ADPU-da 2021-ci ildən etibarən təhsilin təşkili və idarə olunması, təhsilin marketinqi, ali təhsilin idarə olunması, təlim və tədrisin təşkili və idarə olunması, eləcə də ümumi idarəetmə istiqamətlərində magistr hazırlığı aparılır. Bu ixtisaslaşmalar, o cümlədən ikili diplom və SABAH proqramları üzrə hazırda 429 nəfər təhsil alır ki, bu da ümumi magistrantların 42,4 faizini təşkil edir. Bu göstərici idarəetmə və təhsil liderliyi sahələrinə marağın artdığını nümayiş etdirir.

Son illər peşəkar kadr hazırlığı prosesində artan tələbatla bağlı olaraq ADPU-da magistratura səviyyəsi üzrə ixtisaslaşmaların sayı və qəbul planı ardıcıl şəkildə artırılıb. 2021-2022-ci tədris ilində magistrantların ümumi sayı 700-ə yaxın olduğu halda, 2024-cü ildə bu rəqəm 900-ü keçib. 2025-2026-cı tədris ilində isə universitetdə ümumilikdə 1012 magistrant təhsil alır. Mövcud magistrantların sayı və növbəti il üçün qəbul planı nəzərə alınarsa, gələn tədris ilində magistrantların sayının 1100 nəfərdən çox olacağı proqnozlaşdırılır. Həmçinin, 2025-2026-cı tədris ilindən etibarən magistratura səviyyəsində bütün ixtisaslaşmalar üzrə tamamilə yeni təhsil proqramları və yenilənmiş tədris planları tətbiq edilir. Bu yeniliklər müasir əmək bazarının tələblərinə cavab verən, analitik düşüncəyə və idarəetmə bacarıqlarına malik peşəkar kadrların hazırlanmasına xidmət edir.

Əsas yeniliklər arasında hibrid imtahan sisteminin tətbiqi, pedaqoji internatura proqramının işə salınması və beynəlxalq reytinqlərdə əldə edilən irəliləyişlər xüsusi yer tutur.

ADPU klassik pedaqoji dəyərlərlə yanaşı, innovativ yanaşmaları da tətbiq edir. Pedaqoji Universitetin dünya univertsitetləri ilə elm və təhsil sahəsində əməkdaşlığının qurulması, Türk dövlətlərinin Ali təhsil ocaqları ilə qarşılıqlı əlaqələrinin gücləndirilməsində və beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi də nailiyyətlər sırasındadır. Mühüm uğurlardan biri kimi Corc Vaşinqton universiteti ilə birgə həyata keçirilən ikili diplom proqramı tələbələrə beynəlxalq təcrübə qazanmaq imkanı yaradır. İndiyədək proqram üzrə 120-yə yaxın məzun olub, hazırda isə 26 nəfər təhsil alır.

Xarici ölkələrin qabaqcıl ali təhsil müəssisələri ilə beynəlxalq əməkdaşlığın qurulmasında universitetin prorektoru Mahirə Hüseynovanın da fəaliyyətini ayrıca qeyd etmək istərdim.

2026-cı ilin əvvəlində ADPU ilk dəfə olaraq "QS Dünya Universitetləri Reytinqi Avropa 2026" siyahısında 601-650-ci yerlər intervalında qərarlaşıb. Həmçinin ADPU "QS Avropa 2026"nın Qərbi Asiya regionu üzrə reytinq sıralamasında 140 ali təhsil qurumu arasında 54-cü sırada yer alıb. Bu, universitetimizdə rəqəmsal inkişaf üzrə fəaliyyət planının hazırlanaraq həyata keçirildiyini təsdiqləyir və eyni zamanda inkişaf transformasiyasına uyğun olaraq yeni ixtisaslaşmaların, beynəlxalq təcrübənin tətbiq olunduğunu təsdiq edir.

İslahatlar kursuna uyğun olaraq, universitetimizdə kəmiyyətdən keyfiyyətə keçid strategiyası əsasında növbəti illəri əhatə edən yenilənmiş "ADPU Strateji İnkişaf Planı" qəbul edilib və uğurla icra olunmaqdadır.

Beləliklə, Prezident İlham Əliyevin müdrik dövlət idarəçiliyi sayəsində əsas çağırışlardan biri olan təhsil sistemində müasir innovasiyaların genişləndirilməsi, rəqəmsal təhsilə keçidin gücləndirilməsi və insan kapitalının inkişafı istiqamətində aparılan islahatlar uğurla davam etdirilir. Məktəbdən ali təhsilə qədər qurulan bu sistemli yanaşma ölkəmizin rəqəmsal gələcəyinin möhkəm təməlinin formalaşdırılmasında mühüm rol oynayacaq.



*Qızxanım Qəhrəmanova*
*Psixologiya elmləri doktoru, professor*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*İbtidai Təhsil fakültəsinin dekanı*

# Süni intellekt üzrə mütəxəssis hazırlığına başlanılır

2026/2027-ci tədris ilindən Bakı Dövlət Universitetinin (BDU) Tətbiqi riyaziyyat və kibernetika fakültəsində magistratura səviyyəsində kompüter elmləri ixtisası üzrə süni intellekt ixtisaslaşması açılacaq. BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsi süni intellekt istiqamətində magistr hazırlığının həyata keçirilməsi üçün güclü elmi-metodiki bazaya malikdir. Süni intellekt sahəsinin əsasını təşkil edən riyazi modelləşdirmə, optimallaşdırma üsulları, ehtimal nəzəriyyəsi, statistik analiz, alqoritmlər nəzəriyyəsi, proqramlaşdırma və informasiya texnologiyaları fakültənin tədris və tədqiqat istiqamətləri ilə sıx bağlıdır. Süni intellekt ixtisaslaşmasının açılması fakültənin mövcud potensialından daha səmərəli istifadə edilməsinə və yeni elmi istiqamətlərin inkişafına şərait yaradacaq.



Süni intellekt üzrə magistr hazırlığı ölkədə innovasiya ekosisteminin gücləndirilməsinə, elmi tədqiqatların beynəlxalq səviyyədə rəqabət qabiliyyətinin artırılmasına və universitet-sənaye əməkdaşlığının genişlənməsinə xidmət edəcək. Magistrantlar maşın təlimi, dərin öyrənmə, kompüter görməsi, təbii dilin emalı, məlumatların intellektual analizi və digər müasir istiqamətlər üzrə bilik və bacarıqlar əldə etməklə həm akademik fəaliyyətə, həm də əmək bazarına daha hazırlıqlı şəkildə inteqrasiya oluna biləcəklər.

Nəticə etibarilə BDU-da süni intellekt ixtisaslaşmasının açılması dövrün tələblərinə cavab verən strateji əhəmiyyətli addımdır. Bu ixtisaslaşma yüksəkixtisaslı kadrların hazırlanmasına, ölkənin rəqəmsal inkişaf strategiyasının həyata keçirilməsinə, elmi-tədqiqat potensialının gücləndirilməsinə və Azərbaycanın qlobal texnoloji inkişaf proseslərində daha fəal iştirakına mühüm töhfə verəcək.

# Uşaqlar - Güclü dövlətin və sağlam cəmiyyətin təməlidir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti üzrə hazırlanmışdır

Uşaqların və gənclərin fiziki, həmçinin mənəvi inkişafı hər bir cəmiyyətin gələcəyini müəyyən edən vacib amillərdən sayılır. Bəllidir ki, sağlam bədənə və güclü xarakterə malik olan gənc nəsil həm öz həyatında uğur qazanır, həm də ölkənin sosial, iqtisadi və mədəni inkişafına mühüm töhfələr verir.

Müasir dövrdə texnologiyaların sürətli inkişafı və uşaqların vaxtlarının böyük hissəsini elektron cihazlar qarşısında keçirmələri fiziki hərəkətliliyin azalmasına səbəb olub. Elmi araşdırmalar göstərir ki, uşaqlıq və yeniyetməlik dövründə qazanılan fiziki vərdişlər insanın bütün həyatını formalaşdırır. Aktiv həyat tərzi sürən uşaqlarda piylənmə, şəkərli diabet, ürək xəstəlikləri və bir çox digər sağlamlıq problemlərinin yaranma riski əhəmiyyətli dərəcədə azalır. Məhz buna görə valideynlər uşaqların gün ərzində kifayət qədər hərəkət etməsinə, açıq havada vaxt keçirməsinə və müxtəlif idman növləri ilə məşğul olmasına xüsusi diqqət yetirməlidirlər.

**Fiziki passivlik uşaqlar üçün hansı təhlükələri yaradır?**

Mövzu barədə pediatr-həkim Ramilə Məmmədova "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, uşaqların fiziki inkişafı sadəcə boyun uzanması və ya çəkisinin artması ilə ölçülmür. Eyni zamanda onun sümük sisteminin möhkəmlənməsi, əzələlərinin düzgün formalaşması, ürək-damar sisteminin sağlam fəaliyyəti, ağciyərlərinin inkişafı və immunitet sisteminin güclənməsi ilə sıx əlaqədardır:"Maraqlı məqamlardan biri budur ki, uşaqların sümükləri böyüklərin sümüklərindən daha elastik olur. Bu səbəbdən onlar bəzi zərbələrə daha davamlı görünə bilsələr də, inkişaf dövründə qidalanma və fiziki aktivliyin olmaması gələcəkdə sümük problemlərinin yaranmasına səbəb ola bilər. Yay mövsümü uşaqların və gənclərin fiziki inkişafı üçün ən əlverişli dövrlərdən hesab olunur. Günəş işığı orqanizmdə D vitamininin sintezini artırır, bu vitamin isə kalsiumun mənimsənilməsinə kömək edərək sümük və dişlərin möhkəmlənməsində mühüm rol oynayır. Bununla yanaşı, velosiped sürmək, üzgüçülüklə məşğul olmaq, qaçış etmək, futbol oynamaq və təbiətdə müxtəlif hərəkətli oyunlar oynamaq uşaqların həm əzələ sistemini gücləndirir, həm də onların koordinasiya və çeviklik qabiliyyətlərini inkişaf etdirir".



**Dəniz mövsümündə uşaqların qorunması...**

Həkimin sözlərinə görə, bir çox valideynlərin bilmədiyi maraqlı fakt ondan ibarətdir ki, üzgüçülük uşaqlar üçün ən faydalı idman növlərindən biri hesab edilir, çünki suyun müqaviməti əzələlərin bərabər şəkildə işləməsini təmin edir, onurğa sütununa düşən yükü azaldır, tənəffüs sisteminin inkişafına müsbət təsir göstərir: "Məhz buna görə yay aylarında uşaqların nəzarət altında üzgüçüklə məşğul olması onların ümumi sağlamlığı üçün olduqca faydalıdır. Dəniz mövsümündə uşaqların sağlamlığının qorunması xüsusi diqqət tələb edir, çünki günəş şüalarının həddindən artıq təsiri dəri yanıqları, susuzlaşma və istilik vurması kimi təhlükəli vəziyyətlərə səbəb ola bilər. Həkim olaraq tövsiyə edirəm ki, uşaqlar xüsusilə saat 11:00-dan 16:00-a qədər olan müddətdə uzun müddət birbaşa günəş altında qalmasınlar, açıq rəngli və nəfəs alan parçalardan hazırlanmış geyimlər geyinsinlər və yaşlarına uyğun günəşdən qoruyucu kremlərdən istifadə etsinlər. Valideynlər dənizdə və ya hovuzda istirahət zamanı uşaqları heç bir halda nəzarətsiz buraxmamalıdırlar. Üzmə bacarığı olan uşaqlar belə gözlənilməz vəziyyətlərlə qarşılaşa bilərlər. Bundan əlavə, dəniz suyunda uzun müddət qaldıqdan sonra uşağın bədəninin təmiz su ilə yuyulması dərinin qıcıqlanmasının qarşısını almağa kömək edir və infeksiya riskini azaldır".

**Valideynlər diqqətli olmalıdırlar**

R.Məmmədova qeyd edib ki, fiziki inkişaf qədər mənəvi inkişaf da uşağın şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır: "Mərhəmət, dürüstlük, məsuliyyət hissi, əməksevərlik və insanlara hörmət kimi keyfiyyətlər məhz uşaqlıq illərində yaranmağa başlayır. Valideynlərin, müəllimlərin və ümumilikdə cəmiyyətin uşaqlara göstərdiyi davranış nümunələri onların xarakterinin formalaşmasına birbaşa təsir edir və gələcəkdə hansı dəyərlərə sahib olacaqlarını müəyyənləşdirir.

Bu gün uşaqların texnologiyadan geniş istifadə etməsi onların inkişafına müəyyən üstünlüklər qazandırsa da, ekran qarşısında həddindən artıq vaxt keçirmək fiziki passivliyə, yuxu pozğunluqlarına və sosial ünsiyyət bacarıqlarının zəifləməsinə səbəb ola bilər. Buna görə də valideynlər rəqəmsal texnologiyalarla açıq hava fəaliyyətləri arasında düzgün balans yaratmağa çalışmalıdırlar.

Nəticə etibarilə, sağlam qidalanma, kifayət qədər fiziki aktivlik, düzgün yuxu rejimi, təhlükəsiz yay istirahəti və güclü mənəvi dəyərlərə zəngin tərbiyə uşaq və gənclərin hərtərəfli inkişafının əsas şərtləridir. Bu gün uşaqların sağlamlığına və mənəvi dünyasına qoyulan hər bir investisiya sabah daha güclü, daha sağlam və daha uğurlu bir cəmiyyətin formalaşmasına xidmət edəcək".

***Yeganə BAYRAMOVA***

# Ankara sammiti öncəsi gərginlik artır

## Rutte Trampı "yola gətirməyə" çalışır - ABŞ isə mövqeyində qətidir




Türkiyədə baş tutacaq NATO Zirvəsinə sayılı günlər qalmaqdadır. Yeni əsrin ən strateji sammiti kimi xarakterizə olan tədbirə rəsmi nümayəndə heyətlərindən və liderlərdən ibarət minlərlə qonağın qatılacağı gözlənilir. Beynəlxalq aləmin gündəmində olan bu tədbirdə əsas müzakirə mövzuları müdafiə və çəkindirmə planlaması, Ukraynaya uzunmüddətli dəstək, habelə müdafiə xərcləri hədəfləri və yükün bölüşdürülməsi olacaqdır.

**Türkiyə nələr əldə edəcək?**

Qeyd edək ki, tədbirin Türkiyəyə mühüm siyasi və iqtisadi töhfələr gətirəcəyi də proqnozlaşdırılır. Belə ki, Türkiyə mətbuatının yazdığına görə, sammitin uzunmüddətli makroiqtisadi təsiri ölkə iqtisadiyyatına ildə təxminən 1,7 milyard dollar həcmində əlavə gəlir gətirə bilər. Tədbirin birbaşa iqtisadi effekti isə iştirakçıların otellərdə yerləşdirilməsi və logistik xidmətlər hesabına 60-62,5 milyon dollar səviyyəsində qiymətləndirilir. Türkiyə əsas iqtisadi faydanı müdafiə sənayesi sahəsində yeni müqavilələrdə görür. Belə ki, NATO ölkələrinin müdafiə xərclərini ümumdaxili məhsulunun 5 faizinə çatdırmaq qərarı türk hərbi-sənaye kompleksi üçün yeni ixrac imkanları yaradır. Analitiklərin hesablamalarına görə, bu proses yaxın üç ildə Türkiyənin müdafiə sənayesinə təxminən 3 milyard dollar əlavə gəlir gətirə bilər. Ekspertlər, həmçinin sammitin xarici investisiyaların artmasına və Türkiyənin Avropanın enerji təhlükəsizliyində rolunun güclənməsinə müsbət təsir göstərəcəyini vurğulayırlar.

**Rutte Ankaradan öncə Vaşinqtonda...**

Vurğulandığı kimi, Ankara sammiti Avropa ilə ABŞ arasındakı dərin fikir ayrılıqları müstəvisində baş tutacaq. Belə ki, Alyansın hərbi xərclərinin bölüşdürülməsi məsələsi artıq bir müddətdir ki, müttəfiqlər arasında kəskin ziddiyyət yaradıb. Təsadüfi deyil ki, ABŞ prezidenti Donlad Tramp Ağ evdə jurnalistlərlə söhbətində bildirmişdi ki, "Biz NATO-ya ildə 600 milyard dollar xərcləmişik. Bu, sadəcə axmaqlıqdır və bizə heç bir köməyi toxunmayıb". Birləşmiş Ştatların dövlət başçısının sözlərinə görə, kiçik məsələlərdə NATO-dan kömək ala bilmədiyi üçün ABŞ-ın onlara yardım göstərməmək hüququ var: "İran məsələsində Avropa bizə yardımdan imtina etdi və Vaşinqton buna NATO müttəfiqlərinə kömək etməməklə cavab verə bilər".

Bir neçə gün öncə Ağ Evdə baş tutan NATO rəhbəri Mark Rutte ilə Tramp arasındakı görüş də məhz bu mənada böyük maraq doğururdu. ABŞ-ın Avropada qoşunlarının sayını azaltmaq barədə açıqlamasından sonra ittifaq müttəfiqləri arasındakı gərginlik pik həddə çatıb. Görüşdə Mark Rutte bildirib ki, Tramp vəzifəyə başlayandan bəri müttəfiqlərin əlavə müdafiə investisiyaları 1,2 trilyon dollara çatıb. Bundan əlavə, avropalılar Amerika hərbi şirkətlərinə yüz milyardlarla dollarlıq sifarişlər verir və ABŞ-da minlərlə iş yeri yaradırlar. Ekspertlərin fikrincə, Ruttenin əsas məqsədi Trampın NATO müttəfiqlərinin İranla müharibədə ABŞ-ı dəstəkləməməsi və və Hörmüz boğazının açılmasına kömək etməkdən imtina etməsi ilə bağlı "qəzəbini" soyutmaq olub. Rutte bildirib ki, hazırda Avropa və Kanada təxminən 20 faiz artıq büdcə formalaşdırıb. Müttəfiqlər ABŞ səviyyələrinə yaxınlaşmaq üçün büdcələrini artırmağa davam edəcəklər.

**Tramp: Bizə onların pulu lazım deyil...**

ABŞ Prezidenti görüşdə deyib: ""Xoş sözlərinizə görə minnətdaram; yaxşı iş görmüsünüz. Və açığı, sizin yerinizdə başqası olsaydı, bu gün burada olmazdıq, çünki hamı bizi məyus edib. Mənə NATO üzvlərinin sədaqəti lazımdır. Bizə onların pulu lazım deyil; dünyanın ən güclü ordusuna sahibik. Təkcə Almaniyada 50.000 əsgərimiz var. Biz həmişə NATO müttəfiqlərimiz üçün vuruşuruq, bazalarımız üçün yüz milyonlarla dollar ödəyirik və cavab olaraq "Xeyr, sizə kömək edə bilmərik" eşidirik".

**Köhnə qitə hərəkətə keçib...**

Artıq NATO üzvlərinin hərbi büdcələrini yeniləməsi məsələsi demək olar ki, qaçılmazdır. Xatırladaq ki, ötən ilki sammitdə ittifaq üzvləri hərbi büdcələrini 2035-ci ilə qədər ÜDM-in 5 faizinə qədər artırmağı öhdələrinə götürmüşdülər. Bunun 3,5 faizi birbaşa müdafiə ehtiyaclarına, daha 1,5 faizi isə kibertəhlükəsizlik və nəqliyyat infrastrukturunun modernləşdirilməsi kimi əlaqəli sahələrə yönəldiləcəkdi. NATO-nun baş katibi Mark Ruttenin sözlərinə görə, Avropa paytaxtları Amerikanın NATO maliyyələşməsində iştirakının azalmasını kompensasiya etmək üçün xərclərini 100 milyard dollardan çox artırıblar. Əvvəllər təhlükəsizliyə qənaət edən dövlətlər indi silahlanma yarışına qoşulmaq məcburiyyətindədirlər. NATO Baş katibinin 2025-ci il hesabatında bildirilirdi ki, Lüksemburq ən böyük büdcə artımını göstərərək müdafiə xərclərini 115 faiz artırıb. Belçika, Sloveniya, Albaniya və Danimarka da maliyyələşdirmələrini fəal şəkildə artırır. Bu arada, ABŞ ümumi hərbi xərclərdə alyansın mütləq lideri olaraq qalsa da, artım tempi baxımından sonuncu yerdədir. Macarıstan, Fransa, Çexiya və Böyük Britaniya da ən aşağı büdcəyə malik beş ölkə arasındadır.

**ABŞ-ın düşüncəsi dəyişməyəcək...**

Bu arada NATO-nun keçmiş baş katibi Anders Foq Rasmussen (2009-2014) bildirib ki, Avropa ABŞ prezidenti Donald Trampın sözlərinə o qədər də diqqət yetirməmlidir. The Guardian qəzetinin məlumatına görə, keçmiş baş katib deyib ki, "Düşünürəm yalnız Trampın nə deyə biləcəyini və ya edə biləcəyini düşündüyümüz şeylərə reaksiya verməyi dayandırmalıyıq. Trampın reaksiyasını nəzərə almadan öz qərarlarımızı verməyin vaxtıdır". Rasmussenin sözlərinə görə, Trampın səlahiyyət müddəti bitdikdən sonra vəziyyətin status-kvoya qayıdacağına inanmaq sadəlövhlükdür. "Bu, baş verməyəcək. Dünya dəyişib. Amerikalıların münasibətləri dəyişib", - deyə o vurğulayıb.

**ABŞ əsgərlərini geri çəkir?**

Qeyd edək ki, ekspertlər də ABŞ-ın NATO-ya əvvəlki kimi külli-miqdarda



vəsait ayıracağını düşünmür. Bildirilir ki, mayın əvvəlində CBS News və Reuters ABŞ-ın Almaniyadan təxminən 5000 əsgəri geri çəkəcəyini yazıblar. Pentaqon rəsmiləri bu addımı Trampın İranla müharibədə müttəfiqlərin göstərdiyi yardım səviyyəsindən narazılığının əlaməti adlandırıblar. Bir müddət əvvəl Tramp NATO-dan çıxmağı ciddi şəkildə düşündüyünü açıqlayıb.

May ayının sonunda "Welt am Sonntag" Amerikanın Avropadakı iştirakının azaldılmasını sürətləndirmək planları, "Financial Times" isə nüvə paylaşma proqramının mümkün genişləndirilməsi barədə məlumat verib. "The Economist" isə Vaşinqtonun iştirakının azalması halında avropalıların kollektiv müdafiə ssenariləri hazırladığını yazıb. FT həmçinin Pentaqonun Almaniyaya bu silahlarla təchiz olunmuş bir batalyon yerləşdirmək planlarından imtina etməsindən sonra Almaniyanın Tomahawk raketləri almağa çalışdığını bildirib.

**NATO Bankı ideyası irəli sürülür...**

Vurğulayaq ki, artıq NATO-nun daha da gücləndirilməsi və Avropanın maliyyələşmədə iştirakını stimullaşdırmaq üçün yeni planlar irəli sürülür. "Financial Times" yazır ki, Kanada və Lüksemburq Baş Nazirləri NATO Müdafiə Bankının yaradılmasını tələb edərək, "çəkindirmənin" "maliyyə və iqtisadi güc" ilə dəstəklənməli olduğunu bildiriblər. Onlar alyansın illik əlavə xərclərini 850 milyard avro olaraq qiymətləndiriblər. "Kapital səfərbər etmək qabiliyyətimiz silahlı qüvvələrimiz qədər güclü olmalıdır. Cavab cəsarətli çoxtərəfli həlldir: Müdafiə, Təhlükəsizlik və Dözümlülük Bankının (DSRB) yaradılması", - deyə baş nazirlər qeyd ediblər.

Karni və Friden NATO ölkələrinin artıq müdafiə büdcələrini əhəmiyyətli dərəcədə artırmaq öhdəliyini götürdüklərini, buna görə də maliyyələşdirməyə ehtiyacın "aydın" olduğunu bildirdilər. "Bu, Avropa və Kanadada Alyans üzrə illik 850 milyard avrodan çox əlavə xərc tələb edəcək ki, bu da daxili investisiya prioritetləri ilə ödənilə bilməz", - deyə onlar vurğuladılar.

Baş nazirlərin fikirlərinə görə, yeni təklif Dünya Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) kimi çoxtərəfli maliyyə qurumlarının sübut olunmuş modelinə əsaslanır. Qeyd olunub ki, mövcud qaydalara əsasən kommersiya bankları müdafiə sektorunun hər avro kapitalı üçün 12 avro kredit verə bilsələr də, yeni NATO bankının çoxtərəfli arxitekturası bu məbləğin ikiqatından çox kredit verməyə imkan yaradacaq. Ölkələrin iştirakı isə Dünya Bankı və AYİB-in xətti ilə qurulacaq. Hər bir ölkə iki növ kapital yatıracaq: ödənilmiş və geri çağırıla bilən. Ödənilmiş kapital banka qoşulduqdan dərhal sonra yatırılır. Bu pul banka likvidlik təmin edir - yəni dərhal əməliyyatlara başlaya bilər. Bu töhfə ölkənin dövlət borcuna daxildir, lakin illik büdcə kəsirinə təsir göstərmir. Bundan əlavə, Carney və Frieden qeyd edib ki, bu, NATO-nun ÜDM-in 5 faizi həcmində müdafiə xərcləri hədəfinə hesablanır. Çağırıla bilən kapital, ölkələrin böhran yaranacağı təqdirdə banka maliyyə dəstəyi vəd etməsini nəzərdə tutur. Bu cür zəmanətlər bankın ən yüksək kredit reytinqini - "AAA" alması üçün lazımdır.

***P.İSMAYILOV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Qəddarlıq və amansızlığın izi!




İnsanları cəzalandırmaq və qorxutmaq üçün qədim zamanlardan müxtəlif işgəncələr verilib. Tarix boyunca daha çox dinə qarşı çıxanlara, cadugərliklə məşğul olanlara, vətənə xəyanət edənlərə müxtəlif işgəncələr həyata keçirilib. Amma işgəncə yalnız cəzalandırma vasitəsi deyildi. Bəzən insanların nələrisə etiraf etməsi üçün də bu üsula əl atırdılar.




**Talion prinsipi...**

İşgəncə ilə bağlı ən qədim məlumata bir misirli şairin yazısında rast gəlinir. Şair II Ramzesin 1300-cü ildə kölələrə, istilaçılara tətbiq etdiyi işgəncələrdən bəhs edib. Tarixdən də bəllidir ki, işgəncələr bir çox dövlətlər tərəfindən həyata keçirilib. Xüsusilə, Misir, Assuriya, Yunanıstan, Roma və digər qədim dövlətlərdə müxtəlif işgəncə növləri tətbiq edilib. Məsələn, romalıların ədalət sistemində Talion prinsipini - "həyata görə həyat, gözə-göz, dişə-diş" rəhbər tutulması bir çox ölkənin ədalət sistemində önəmli faktora çevrilib. Roma imperatorluğunda bir qulun ifadəsi yalnız işgəncə altında alınarsa, qəbul edilirdi. Çünki qulun öz iradəsi, öz istəyi ilə həqiqəti söyləyəcəyi mümkün sayılmırdı.

O zamanlar işgəncə ədalət sistemində mühüm yer tuturdu. İşgəncənin tətbiqi cinayət prosesinin istintaq forması ilə bağlı idi. Etiraf və cinayəti törədən şəxslərin adlarının açıqlanması məqsədilə işgəncədən istifadə olunurdu. İnkvizisiya məhkəmələrində işgəncədən istifadə 1252-ci ildən başlayıb və yalnız 1816-cı ildə Roma Katolik kilsəsi tərəfindən qadağan olunub.

**İşgəncə ən gec bu ölkədə ləğv edilib...**

Bundan başqa, işgəncələr Danimarkada 1770-ci il, Rusiyada II Yekaterinanın gizli fərmanı ilə 8 noyabr 1774-cü il, Avstriyada 1776-cı il, Fransada 1780-ci, Niderlandda 1789-cu, Portuqaliyada 1826-cı, Yunanıstanda 1827-ci ildə ləğv olunub. Avropa ölkələrindən işgəncə ən gec İsveçrədə ləğv edilib.

XX əsrdə işgəncələr Almaniya, Çin, Latın Amerikası, Afrika və Asiya diktaturalarında, totalitar, diktator və repressiya rejimləri olan digər ölkələrdə yenidən geniş tətbiq olunmağa başlayıb.

**İşgəncənin bütün növlərinin qadağan edildiyi ilk ölkə**

Avropada işgəncələrin tətbiqinin məhdudlaşdırılması yalnız XVII əsrin sonlarında müşahidə edilir ki, bu da humanist maarifləndirmə ideyalarının yayılması ilə bağlıdır. Məhkəmə icraatı zamanı işgəncənin bütün növlərinin ləğv edildiyi birinci ölkə Prussiya olub. Orada işgəncələr faktiki olaraq 1754-cü ildən qadağan edilib.

**Xalqımız da amansız işgəncələrin qurbanı olub**

XXI əsrdə yaşamağımıza baxmayaraq, hələ də müasir dünyamızda işgəncələr var. Azərbaycan xalqı da illər boyu işgəncələrə məruz qalıb. Belə ki, tarix boyu xalqımızın erməni millətçiləri tərəfindən hüquq və azadlıqları kütləvi şəkildə və kobud formada pozulub. Soydaşlarımız xüsusilə Birinci Qarabağ müharibəsində, Xocalı soyqırımında ermənilərin işgəncələrinə və digər qeyri-insani rəftarına məruz qalıb. Yüzlərlə Azərbaycan vətəndaşı, o cümlədən uşaq, qadın, qocalar erməni əsir və girovluğunda dözülməz işgəncələrin qurbanı olub. Çoxsaylı faktlar göstərir ki, əsir və girovlara müxtəlif dəhşətli işgəncələr verilib. Onlar vəhşicəsinə döyülüb, qəsdən şikəst vəziyyətinə salınıb, sinələrinə qızdırılmış xaç nişanları ilə damğa basılıb, dırnaqları və dişləri çıxarılıb, yaralarına duz basılıb, ölənə qədər rezin və dəmir dəyənəklərlə döyülüblər...

Unutmayaq ki, insan hüquqlarının qorunması yalnız hüquqi öhdəlik deyil, həm də mənəvi məsuliyyətdir. İgəncənin olmadığı, insan ləyaqətinin ali dəyər kimi qəbul edildiyi bir dünya qurmaq hər birimizin ortaq vəzifəsidir. Çünki susqunluq çox vaxt zülmün davam etməsinə xidmət etdiyi halda, həmrəylik və dəstək dəyişimin başlanğıcı ola bilər.

Heç kim işgəncəyə, qəddar münasibətə məruz qalmamalıdır. Bu müddəa İnsan Hüquqları haqqında Ümumi Bəyannəmənin 5-ci, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 7-ci, "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının 3-cü maddəsində öz əksini tapıb.

Yeri gəlmişkən, bu gün Beynəlxalq İşgəncə Qurbanlarına Dəstək Günüdür. Bu əlamətdar gün insanlara işgəncənin cinayət olduğunu xatırladır və hər kəsə bu mövzu ətrafında birləşmək, insan işgəncələrinə qarşı fikirlərini səsləndirmək imkanı yaradır.

İşgəncənin heç bir şəraitdə, heç bir səbəblə və heç bir bəhanə ilə qəbul edilə bilməyəcəyini vurğulayan bu gün, dövlətləri, beynəlxalq təşkilatları və vətəndaş cəmiyyətlərini insan hüquqlarının qorunması istiqamətində daha qətiyyətli addımlar atmağa çağırır. Eyni zamanda hər bir insanı laqeyd qalmamağa, haqsızlığa qarşı səsini yüksəltməyə və ədalətin yanında olmağa səsləyir.

*Yeganə BAYRAMOVA*



## İlk dünya çempionatı Azərbaycanda keçiriləcək

FIFA

FIFA Şurasının Bürosunun qərarına əsasən, 15 yaşadək oğlan futbolçulardan ibarət komandalar arasında ilk dünya çempionatı və 2026-cı il Festivalı Azərbaycanda keçiriləcək. AZƏRTAC xəbər verir ki, qərara əsasən, turnir 22-31 oktyabr 2026-cı il tarixlərində təşkil olunacaq. Yarışda ali futbol qurumuna üzv olan milli assosiasiyaların U-15 komandaları iştirak edə biləcəklər.

FIFA bu qərarı qəbul edərkən Azərbaycanın müasir idman infrastrukturu, beynəlxalq standartlara cavab verən idman obyektləri və irimiqyaslı beynəlxalq yarışların təşkilində qazandığı uğurlu təcrübəni nəzərə alıb. Turnirin ölkəmizdə keçirilməsi Azərbaycanın dünya futbolunda artan nüfuzunun və beynəlxalq idman tədbirlərinə ev sahibliyi imkanlarının növbəti təsdiqidir.

Qeyd edək ki, FIFA 2025-ci ilin dekabrında U-15-lər arasında dünya çempionatının təsis olunması barədə qərar qəbul edib.

## Azərbaycan cüdoçuları Qran-Pri turnirində iştirak edəcəklər




Beynəlxalq Cüdo Federasiyasının təqviminə əsasən, 26-28 iyun tarixlərində Çinin Sindao şəhərində cüdo üzrə Qran-Pri turniri keçiriləcək. Los-Anceles Olimpiadasına lisenziya xalları verən yarışda Azərbaycanın 17 cüdoçusu (11 kişi, 6 qadın) 10 çəki dərəcəsində qüvvəsini sınayacaq. Üç gün davam edəcək turnirdə 58 ölkədən 502 cüdoçu (267 kişi, 235 qadın) tatamiyə çıxacaq.

Dünya Turu seriyasına daxil olan yarışda Azərbaycan Cüdo Federasiyasının Hakimlər Komitəsinin üzvü, "A" kateqoriyalı beynəlxalq hakim Nazim Umbayev də ədalət təmsilçiləri arasında yer alacaq.

## DÇ 2026: Braziliya C qrupunu lider kimi başa vurub




Futbol üzrə dünya çempionatının Şotlandiya - Braziliya oyunu keçirilib. AZƏRTAC xəbər verir ki, C qrupunun III turunun matçında Braziliya millisi hesabı açıb - 1:0. Oyunun 7-ci dəqiqəsində Vinisus rəqib müdafiəçilərin səhvini bağışlamayıb. Oyunun 45+3-cü dəqiqəsində Vinisus dubl müəllifi olub. Daha sonra Braziliya üstünlüyünü möhkəmləndirib 3:0. Qarşılaşmanın 60-cı dəqiqəsində Mateus Kunya fərqlənib. Beləliklə, Braziliya C qrupunu lider kimi başa vurub.

## "Qəbələ" müqaviləni uzatdı




"Qəbələ" Seydina Keyta ilə müqavilənin müddətini uzadıb. Komanda mərkəz müdafiəçisi ilə yeni 1 illik müqavilə bağlayıb. 2026-cı ilin yanvarından "Qəbələ"nin şərəfini qoruyan futbolçu bu müddət ərzində 19 oyunda meydana çıxıb və 3 qol vurub

## "Araz-Naxçıvan"dan növbəti transfer




"Araz-Naxçıvan" növbəti transferini açıqlayıb. Apasport.az xəbər verir ki, komanda Rövlan Muradovu heyətinə qatıb. Razılaşmaya əsasən, yarımmüdafiəçi ilə 1 illik müqavilə imzalanıb. "Qəbələ" klubunun yetirməsi olan futbolçu müxtəlif illərdə Çexiya "Slaviya"sının B, "Qarabağ"ın U-19, "Qəbələ", "Sumqayıt" və "Zirə" komandalarının formasını geyinib. Futbolçu Azərbaycanın U-19 və U-21 millilərinin də heyətində çıxış edib.

Qeyd edək ki, "Araz-Naxçıvan" buna qədər Tərlan Əhmədli, Ömər Buludov, Slavik Alxasov, İbrahim Piriyev, Ülvi İsgəndərov, Rəşad Həsənov, Alberto Qarsia Fernandes, Alexandro Herrera və Luka Dumançiçlə yeni müqavilə imzalayıb.

## Mehdi Cənnətov "Sumqayıt"da



Mehdi Cənnətov "Sumqayıt"ı I Liqa klubuna dəyişib. "Səbail" son olaraq Premyer Liqada "Sumqayıt"ın formasını geyinmiş Mehdi Cənnətovla 1+1 illik müqavilə imzalayıb. Rusiyanın "Anji" klubunun yetirməsi olan 34 yaşlı qolkiper "Zirə"də də çıxış edib. Cənnətov həmçinin Azərbaycan milli komandasının heyətində 5 oyun keçirib.

## Allah rəhmət eləsin!

Zaur Əliyev, Nəcib Şükürov, Rahim Məmmədov, Abbas Atakişiyev, Alış Qasımov, Kamil Səlimov, Midhət Qəfərov, Baxşeyiş Əsgərov, Turqay Hüseynov, Elçin Xələfov, Akif Rəsulov, Əlizadə Məmmədov, Şükür Yusifov, Həbib Cəfərov, Orxan Aslanov, Elsəvər Muradov, Toğrul Vəliyev, Pərviz Həsənov, Nazim Həsənov və İsmayıl Rəsulzadə Cabir Məmməd oğlu Quliyevə atası professor

**QULİYEV MƏHƏMMƏD ƏHMƏD OĞLUNUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirlər, mərhumun ailəsinə Allahdan səbr diləyirlər.

Allah rəhmət eləsin!


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5348**
**Sifariş: 818**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova